

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 18 (24.453)

9 may 2025-ci il, cümə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Ümummilli Lider yolu

## Müasir, müstəqil, suveren Azərbaycan



Səhifə ➡ 2

*“Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni, bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm”.*



# Ümummilli Lider yolu
# Müasir, müstəqil, suveren Azərbaycan

102 il bundan öncə Azərbaycan xalqının taleyində əbədiyyət günəşi parladı. İllər sonra – 1969-cu il iyulun 14-dən isə bu günəşin işığında "müasir, qüdrətli, bütöv, suveren Azərbaycan" adlı möhtəşəm abidənin təməl daşları atılaraq binə olunmağa, yaradılmağa başlandı. İndi bu abidənin hər zərrəsindən həmişəyaşar müəllifin əziz xatirəsinə ehtiram dolu alqışlar eşidilir, ideyalarına rəğbət dolu nidalar duyulur, yazmaqla tükənməyən, oxuduqca-öyrəndikcə bitməyən, sona yetməyən siyasi-fəlsəfi ideologiyalarla, müdrikliklə zəngin, fəthi mümkünsüz Ulu Öndər zirvəsi görünür hər yerdən hər gün, hər dəqiqə, hər an. Xalqı uçurumdan əbədiyyət zirvəsinə ucaldan bu ulu zirvəyə baxdıqca Azərbaycan, Azərbaycana baxdıqca isə dahi lider Heydər Əliyev zirvəsi canlanır gözlərimiz önündə. Ömrünü xalqının yolunda fəda edən, sadə, zəhmətkeş ailənin övladından xalqın övladı, xalqın Lideri, xalqın xilaskarı məqamına ucalan bu dahi insan haqqında hansı sözləri söyləsən, hansı cümləni, söz birləşməsini, xitabı yazsan, yenə natamamlıq qalır, yetmir kəlmələrin gücü Onun varlığını tam ifadə etməyə, təkcə qüdrətli, bütöv, suveren Azərbaycanın simasında əksini tapır əvəzolunmaz şəxsiyyətin təkrarolunmaz portreti.

### Dahi insan, uzaqgörən şəxsiyyət

Dahi şəxsiyyət 1969-1982-ci illərdə uçurumun astanasında olan, geridə qalmış respublikanı ön sıraya daşıdı, təşəbbüsü, rəhbərliyi ilə ölkəmizdə 250-dən çox zavod, fabrik, istehsal sahələri yaradıldı, 630 min yeni iş yeri açıldı, sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəldi, taxıl, üzüm, pambıq, meyvə-tərəvəz istehsalı sahəsində məhsuldarlıq bir neçə dəfə artdı. Bütün nailiyyətləri xalqı ilə birgə, həmrəy şəkildə etdi, Heydər Əliyev xalqından, xalq Heydər Əliyevdən güc aldı. Daim zəhmətkeşlərlə bir arada oldu, iş gününü pambıq, tütün, üzüm tarlalarında keçirdi, əməkçilərə işləmək, halal zəhmət qazanmaq yolunda böyük ruh yüksəkliyi bəxş etdi.

Ümummilli Liderin ölkəmizə rəhbərliyinin birinci dövrü elmin, təhsilin inkişaf mərhələsi kimi də tarixə düşdü. Müdrik siyasət nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırıldı. Görkəmli dövlət xadiminin göstərişi ilə ali məktəblərdə 100-dən artıq ixtisas açıldı, 6 yeni ali, 12 orta ixtisas məktəbi yaradıldı, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil, mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən, ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alaraq sonralar ölkəmizin aydın sabahları naminə xidmət göstərdilər.

1969-1982-ci illərdə şəhərlərimiz daha da gözəlləşdi, milliləşdi. Uzaqgörən lider ermənilərin Qarabağa yiyələnmək arzularını gözlərində qoydu. Əzəli yurdlarımıza səfərlər edib tariximizi, milliliyimizi qoruyub yaşadan işlər, layihələr həyata keçirməklə, tarixi torpaqlarımız arasında qırılmaz tellər yaratmaqla, Ağdam-Xankəndi dəmir yolunun çəkilişinə nail olmaqla fitnələrin üstündən qara xətt çəkdi.

### Mənəvi dəyərlərimizin yaşadıcısı

Ulu Öndər mədəniyyətimizin hamisi kimi tarixi irsimizi, dəyərlərimizi qorudu, yaşatdı, xalqın milli köklərə bağlılığını təmin etdi, sayəsində ayrı-ayrı sahələrin kamil bilicilərinə, görkəmli yazıçılara, incəsənət xadimlərinə abidələr ucaldıldı, yubileylər yüksək səviyyədə qeyd olundu, sənətə, sənətkara dəyər, müəllim adına hörmət artdı. Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti yenidən dirçəldi, dahi şəxsiyyətin göstərişi ilə Şuşada Molla Pənah Vaqifin məzarı üstündə abidə – məqbərə ucaldıldı, Xurşidbanu Natəvana abidə qoyuldu, xalq düşməni damğası vurulan şair-yazıçılara bəraət verildi, adları əbədiləşdirildi, ölməz dramaturq Hüseyn Cavidin nəşi Uzaq Sibirdən gətirilərək doğma Vətəni Naxçıvanda torpağa tapşırıldı, abidəsi ucaldıldı. Qarabağda yaşamış tarixi şəxsiyyətlərimizin irsinin qorunması yönündə işlər həyata keçirildi, mədəni tədbirlər reallaşdırıldı.

Ulu Öndər "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir" ideyasını gerçəkliyə çevirdi. Bütün həyati risklərə, təhlükələrə rəğmən Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasında "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" ifadəsinin əksini tapması ilə xalqı qarşısında növbəti əvəzolunmaz xidmətini böyük cəsarətlə yerinə yetirdi.

### Böyük azərbaycanlı, böyük türk

1982-1987-ci illər – dahi şəxsiyyətin siyasi fəaliyyətinin ölkənin sərhədlərini aşan, böyük azərbaycanlı, böyük türk kimi böyük imperiyada böyük söz, nüfuz sahibi olduğu dövr. Ulu Öndər Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi bu illərdə yenə fikrini, düşüncəsini xalqının firavanlığını təmin etməyə, diqqətini, qayğısını Azərbaycanın inkişafı naminə yönəltdi, qətiyyətli addımlarla xalqını faciələrdən qorudu. "Kremldə ucalan türk bayrağı" təqdimatı ilə tanındı, sevildi bütün dünya türkləri tərəfindən türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər aparıb çıxartdı.

Ümummilli Liderin ali kürsüdən gedişindən heç iki həftə keçməmiş nankor ermənilər, onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələni gündəmə gətirdilər. Və beləcə, köməksiz, arxasız qalan xalqımız üçün ağır, məşəqqətli günlər başladı. Bu səbəbdən tariximizə qara hərflərlə həkk olundu 1990-cı ilin 20 Yanvar günü. Qanlı hadisələr zamanı ölkəmizdəki insanların taleyinə biganə qalan naşı rəhbərlərdən fərqli olaraq fiziki cəhətdən uzaq, mənən yaxın olan, xalqını canından artıq sevən Ümummilli Lider Heydər Əliyev bütün həyati təhlükələrə, təxribatlara, təzyiqlərə baxmayaraq, Moskvada Azərbaycan SSR-in daimi nümayəndəliyinə gedərək faciəni qəti şəkildə pislədi, xalqının yanında olduğunu bir daha bəyan etdi.

### Xalqın nicatı

1990-cı il iyulun 22-də doğma Vətəni – canı qədər sevdiyi Naxçıvanı qucaq açdı Ulu Öndərə, bağrına basdı naxçıvanlılar öz xilaskarını, qısa zamanda bu qədim diyar milli azadlıq hərəkatının mərkəzinə çevrildi, dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmiz müstəqilliyə doğru böyük dönüş yoluna məhz Naxçıvandan qədəm qoydu. Sayəsində AXC-Müsavat hakimiyyətinin Naxçıvana dair məkrli planları iflasa uğradı, insanlar aclıqdan, səfalətdən, muxtar respublika işğaldan qurtularaq nicat yoluna çıxdı.

Ümummilli Lider Azərbaycanın dövlətçilik tarixi üçün xüsusi önəm daşıyan qərarlar verdi. Minlərlə naxçıvanlının coşqusu, sevgisi, məhəbbəti ilə 1991-ci il 3 sentyabr tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçildi, çıraq işartısında verdiyi və dövlətçiliyin hüquqi bazasını təşkil edən mühüm siyasi-tarixi qərarlar xalqımızı gün işığına çıxardı. Siyasi sabitliyə xidmət edən, ölkəmizi inamlı, etibarlı gələcəyə aparan, dünyada qüdrətli söz, mövqe, nüfuz sahibi edən Yeni Azərbaycan Partiyasını təsis etdi. Azərbaycan SSR Ali Sovetinin iclaslarında qətiyyətlilik, cəsarətlilik rəmzinə çevrilən faktlarla zəngin tarixi çıxışlarını bu gün də televiziya ekranlarından böyük qürurla, fəxarətlə izləyərək deyirik: "Odur xalqın əsl nicatı!"

### Milli Qurtuluşun banisi

Ümummilli Lider Heydər Əliyev məhvə sürüklənən xalqının harayına səs verərək 1993-cü ilin iyunun 15-də Naxçıvandan Bakıya gəldi, Milli Qurtuluşun banisinə, səbəbkarına çevrildi, rəhbərliyi ilə ölkənin taleyində əsaslı dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli Ordu formalaşdırıldı, Azərbaycanın milli mənafelərini, ərazi bütövlüyünü qorumağa qadir nizami silahlı qüvvələr yaradıldı, torpaqlarımızın müdafiəsi ilə bağlı mühüm addımlar atıldı, atəşkəsə nail olundu.

Ulu Öndər müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasını hazırladı, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsini imzalamaqla aqrar sahədə islahatlar reallaşdırmaqla ölkəmizin dünya miqyasında siyasi-iqtisadi çəkisini artırdı, hərtərəfli inkişafına zəmin yaratdı. ***"Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir"***, – deyərək ölkədə xaos, hərc-mərclik yaratmağa, parçalamağa cəhd edən qüvvələrin arzusunu gözündə qoydu, həyatımızın bütün sahələrində canlanma prosesləri yaradan qərar, sərəncam və fərmanlar imzaladı, qurultaylar, forumlar keçirdi. Dahi şəxsiyyətin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair mötəbər beynəlxalq konfrans keçirildi, bununla bu gün "Orta Dəhliz" adlanan "Avropa-Qafqaz-Asiya" layihəsinin bünövrəsi qoyuldu, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi şərtləndirildi. 1993-2003-cü illərdə, Azərbaycanda həyatın o sahəsi olmadı ki, orada inkişafa, yeniliyə imza atılmasın: can verən təbiətimizə can gəldi, "təbiət qəbiristanlığı" ifadəsini "cənnətməkan diyar" xitabları əvəzlədi.

### Nə qədər ki Azərbaycan var, Ulu Öndər də var

2003-cü ildən etibarən Ümummilli Liderin mübarək yoluna sədaqətlə, əbədiyaşar ideyalarının işığında ölkəmiz, xalqımız qızıl hərflərlə şanlı tarix səhifələrini yazmağa başladı. Siyasi arenalarda diplomatik qələbələrin, iqtisadi, sosial, mədəniyyət, təhsil sahələrində uğurların sayı hər ötən il daha da çoxaldı. Kompleks, sistemli şəkildə reallaşdırılan, bütün sahələri əhatə edən geniş islahatlar konsepsiyası şəhər-kəndlərimizi başdan-başa dəyişdi, gözəlləşdirdi, müasirləşdirdi, insanların sosial-rifahı yaxşılaşdı. Ordumuz qüdrətləndi, 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri mübarək arzularımızın gerçəkləşməsinə vəsilə olan Böyük Qələbəyə aparan yolda inam təknəmiz, ümid çırağımız oldu. İllərlə davam edən siyasi-diplomatik gedişlər, ordu quruculuğu nəticəsini verdi, Ali Baş Komandanın siyasi iradəsi, oğulların igidliyi sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə əbədi olaraq əzəli torpaqlarımıza qovuşduq. Dahi şəxsiyyətin ***"Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir"*** vəsiyyətini yerinə yetirən Prezident İlham Əliyevin hər bir azərbaycanlını ayağa qaldıran mübarək kəlamları Böyük Qələbəmizin simvoluna çevrildi: ***"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"*** 2023-cü il sentyabrın 19-20-də isə müzəffər Ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edildi. Bu gün Qarabağımızın hər qarışı dirçəlir, yenidən doğulur, müasir görünüşü ilə öz övladlarını qoynuna alır, adət-ənənələrimiz, tariximiz, genetik yaddaşımız bərpa olunur. Müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün rəmzi sayılan üçrəngli bayrağımız ucalır Qarabağda, Şərqi Zəngəzurda, Şuşada, Laçında, Xankəndidə, Xocalıda...

Ümummilli Liderimiz Heydər Əliyevin illər öncə təməlini qoyduğu, hər naxışında müdrikliyinin, fədakarlığının duyulduğu, müqəddəs amallarının yaşadığı "Müasir, müstəqil, qüdrətli, suveren Azərbaycan" adlı şah abidə dahi şəxsiyyətin yoluna sədaqət sayəsində bu gün dünyanın istənilən nöqtəsindən daha məğrur, daha yenilməz, daha əzəmətli, daha vüqarlı görünür. Üzərinə möhürlənən dahi şəxsiyyətin əbədiyaşar əməllərinin ifadəsinə çevrilən sözlər hər gün daha da əbədiləşir, daha da parlaqlaşır: ***"Nə qədər ki Azərbaycan var, mən də varam! Mən isə Azərbaycanda əbədi olacağam".***

**"Şərq qapısı"**

# Heydər Əliyev dühası



## Azərbaycan Heydər Əliyev yolu ilə uğur qazanaraq zirvələr fəth edir

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil görmək istəyən, Vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli Lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir.

**“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub.”**

Ulu Öndər milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmış böyük şəxsiyyətdir. Ümummilli Liderimiz Heydər Əliyev çıxışlarında deyirdi: ***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub”.*** Müstəqil dövlətçilik salnaməmizdə, xüsusilə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömürboyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Ulu Öndər Heydər Əliyev bu gün dünyada Azərbaycan dövlətinin rəmzi kimi qəbul edilir. Hər kəs yaxşı bilir ki, böyük Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir.

Xoşbəxt o xalqdır ki, Vətənə sonsuz sevgisi, xalqa dərin ehtiramı, dövlətə tükənməz sədaqəti ilə nümunə olan, əqli, iti zəkası, dühası və fitri istedadı ilə dünyada şöhrət qazanmış, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi naminə mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Ümummilli Lider Heydər Əliyev məhz belə şəxsiyyət kimi Azərbaycana həm sevimli övlad, həm də  dahi rəhbər olmuşdur. Ulu Öndər Heydər Əliyev fədakar və vətənpərvər fəaliyyəti ilə adını xalqımızın ictimai fikir və dövlətçilik tarixinə qızıl hərflərlə yazmış dahi şəxsiyyətdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri son dərəcə böyük, çoxşaxəli və misilsizdir. Heydər Əliyev təkcə bir tarixi şəxsiyyət, yaxud böyük dövlət xadimi deyil, eyni zamanda müstəqil Azərbaycan dövlətinin banisi, memarı və qurucusudur. Məhz Heydər Əliyevin siyasi dühası, sarsılmaz iradəsi, tükənməz enerjisi, təcrübəsi, xarizması və sair bu kimi əsl dövlət xadiminə xas keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və vətəninə olan sonsuz sevgisi sayəsində müstəqil Azərbaycan dövləti yenidən qurulmuş, inkişaf etmiş və əbədi yaşaması üçün bütün sahələr üzrə möhkəm təməllər qoyulmuşdur. Dövlətimiz və xalqımız qarşısındakı müstəsna xidmətləri dünyaşöhrətli siyasətçi böyük Heydər Əliyevə əbədi xalq məhəbbəti və dünya azərbaycanlılarının Ümummilli Lideri adını qazandırmışdır. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi öz əlləri ilə yazmışdır. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və şanlı səhifələrindəndir. Dahi şəxsiyyət Heydər Əliyev özünün həyatı və şərəfli fəaliyyəti dövründə xalqına arxalandığı kimi, xalq da öz taleyini ona etibar etmiş, böyük öndərinə arxalanmışdır. Bu inamın, etibarın nəticəsidir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra da ən ağır günlərində xalqımızın gözü yalnız onu axtarmış, ona pənah aparmışdır. Böhranlı, ağır zamanda xalqının səsinə dərhal səs vermiş, ölkəni, onun müstəqilliyini qorumuş, Azərbaycanı stabil və inkişaf edən dövlətə çevirmişdir. Hər zaman doğma xalqına arxalanan görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi: ***“Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.***

Ulu Öndər milli şüurun oyanışında, formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmiş, iqtisadi, siyasi, sosial sahədə olduğu kimi, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin də inkişafının strategiya və taktikasını hazırlamış, uğurla həyata keçirilməsinə nail olmuşdur. Ulu Öndər hələ 1960-80-ci illərdə bu işləri görərkən yaxın gələcəkdə Azərbaycanın müstəqil bir dövlət olacağını düşünürdü və sonralar çıxışlarının birində bu fikrini açıq şəkildə ifadə etmişdi: ***“Bəli, mən bu işləri görərkən həm də gələcək müstəqil Azərbaycan üçün fəaliyyət göstərirdim və gələcək müstəqil Azərbaycan dövlətinin əsaslarını yaradırdım”.*** Əgər 1969-cu il iyulun 14-də millətimizin, xalqımızın taleyi Ulu Öndər Heydər Əliyevə tapşırılmasaydı, Azərbaycan Ona etibar edilməsəydi, indiki inkişafdan danışmaq mümkün olardımı? Təbii ki, yox. Elə ona görə də dünyaca məşhur olan siyasətçilər Heydər Əliyevin hakimiyyətə hər iki gəlişini xalqımızın taleyində bir dönüş mərhələsi kimi səciyyələndirirlər.

Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı.

Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi ***“Azərbaycan dünyaya günəş kimi doğacaq”*** fikri bu gün artıq həqiqətə çevrilməkdə, iqtisadi, siyasi, sosial və hüquqi sistemdə aparılan islahatlar öz bəhrəsini verməkdədir. Ulu Öndər Heydər Əliyevin inkişaf və tərəqqi konsepsiyasını davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dayanıqlı və dinamik iqtisadi inkişafı ilə dünya birliyində öz layiqli yerini tutmuş, sosial-iqtisadi yüksəliş əldə olunmuşdur. Azərbaycan adlı dövlətin varlığını bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyət hesab edən Ulu Öndər Heydər Əliyev inkişafımızın memarı, müstəqillik konsepsiyasının müəllifidir. ***“Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq”.*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu fikirləri Ulu Öndərin dövlətimizə, dövlətçiliyimizə və xalqımıza təmənnasız xidmətinin ən gözəl ifadəsidir.

Xalqımız Ulu Öndərin Prezident İlham Əliyev haqqında dediyi ***“Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”*** fikirləri hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur. Bütün bu əhəmiyyətli amillər isə həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir.

Ümummilli Lider Heydər Əliyevin bu müdrik kəlamları möhtəşəm siyasi uzaqgörənlik nümunəsinə çevrildi. 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın azad edilməsi bu fikirlərin ən qabarıq təcəssümüdür. Dövlət başçısı İlham Əliyev Heydər Əliyevin başladığı, lakin sona çatdıra bilmədiyi işi – Qarabağın azad edilməsini uğurla başa çatdırdı, Azərbaycana qürur, iftixar mənbəyi bəxş etdi. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin qüdrət və əzəmətinə tarixi möhür vurdu. 2020-ci il noyabr ayının 8-də Şuşanın azad olunması münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi ***“Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”*** fikirləri Heydər Əliyevin arzularının ən böyük təntənəsi idi.

Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq və bərpa işləri aparılır. Qarabağda yeni infrastruktur qurulur, tariximizin və mədəniyyətimizin izləri yenidən dirçəlir. Bu quruculuq həm də Azərbaycanın güclü, qüdrətli və yenilməz bir dövlət olduğunu sübut edir.

Azərbaycanın müstəqillik tarixinin 1993-cü ildən bu günədək olan dövrünü müstəqilliyinin bərpasının ilk illəri ilə müqayisə etdikdə Vətəninə, dövlətinə, xalqına bağlı liderin ölkəsini hansı çətinliklərdən, faciələrdən, təhlükələrdən xilas etmək gücünə, qüdrətinə malik olduğunu əsaslı şəkildə  indiki və gələcək nəsillərə çatdırmaq zərurəti yaranır. Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. 1993-cü ildən başlanan Heydər Əliyev yolu Azərbaycanı uğurdan-uğura, zəfərdən-zəfərə aparır. 44 günlük Vətən müharibəsindən sonra dünya Azərbaycanın qələbəsinə, onun gücünə və qətiyyətinə şahid oldu. Daim xalqına arxalanan, xalqdan güc alan Prezident İlham Əliyevə milyonların sevgisi şəksizdir. Bunu ölkədə xalq-lider birliyinin sarsılmazlığı, xalqın inamı və etimadı təsdiqləyir. Xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara, zəfərlərə imza atacaq, söz sahibliyini qoruyacaq.

**Qızıltac ŞAHBAZOVA**
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti,*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi*

# Əbədiyaşar lider

Müasir dünyanın və Azərbaycanın yaxın tarixi dövrlərinə nəzər saldıqda bir sıra xalq və dövlətlərin taleyində dönüş nöqtəsi olmuş liderlər görürük. Onların bəziləri tarixdə iz buraxsa da, çox azı, əslində, bütöv bir xalqın gələcəyini müəyyən edəcək qədər möhkəm təməl qoya bilmişdir. Azərbaycan xalqı üçün məhz belə əvəzsiz lider Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun xalq və dövlət qarşısındakı tarixi xidmətləri, böyük idarəçilik təcrübəsi, müdrik siyasəti bu gün də həyatın bütün sahələrində öz aktuallığını qoruyur.

Mayın 10-u – Ümummilli Liderimiz Heydər Əliyevin doğum günü, Azərbaycan xalqının siyasi yaddaşında və dövlətçilik ənənələrində xüsusi bir yer tutur. Bu təkcə bir liderin doğulduğu gün deyil, eyni zamanda milli dövlətçilik təfəkkürünün bərqərar olduğu, xalqın tarix səhnəsində öz suveren və müstəqil varlığını qoruyub saxlaya bildiyi bir yolun başlanğıcıdır.

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən xalqımızın böyük oğlu Heydər Əliyev Sovet imperiyası şəraitində belə milli maraqları müdafiə etməyi bacaran nadir liderlərdən biri idi. Onun təşəbbüsü ilə respublikamızda sənaye və kənd təsərrüfatında modernizasiya, elmin, təhsilin və mədəniyyətin inkişafı sahəsində ciddi islahatlar həyata keçirildi.

Həmin dövrdə yüzlərlə azərbaycanlı gəncin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsi, elmi kadr hazırlığının gücləndirilməsi, milli kadrların rəhbər vəzifələrə irəli çəkilməsi, məhz Ümummilli Liderimizin uzaqgörən siyasətinin nəticəsi idi. O, milli kimliyi qoruyaraq Azərbaycançılıq ideyasını sistemli şəkildə inkişaf etdirən ilk dövlət xadimi oldu.



SSRİ-nin dağılmasından sonra müstəqilliyini yenidən bərpa edən Azərbaycan böyük çətinliklərlə üzləşdi. Daxili qarşıdurmalar, siyasi sabitsizlik, Ermənistanla müharibə və iqtisadiyyatın iflic vəziyyəti xalqı çıxılmaz duruma salmışdı. Məhz belə bir zamanda xalqın inamı və təkidli tələbi ilə dahi rəhbər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdı.

Bu qayıdış Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Dahi şəxsiyyət Heydər Əliyev qısa müddətdə ölkədə ictimai-siyasi sabitliyi təmin etdi, dövlət strukturlarını bərpa etdi, ordu quruculuğuna başlanıldı. Məhz Onun təşəbbüsü ilə atəşkəsə nail olundu və diplomatik münasibətlər sistemli şəkildə qurulmağa, Azərbaycan beynəlxalq aləmdə müstəqil və etibarlı tərəfdaş kimi tanınmağa başladı.

Dahi şəxsiyyətin uğurlu neft strategiyası Azərbaycanın iqtisadi inkişafının əsas sütununu təşkil etdi. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycan dünyanın enerji bazarına çıxış əldə etdi və ölkəyə milyardlarla dollar sərmayə cəlb olundu. Bu təkcə iqtisadi deyil, həm də siyasi anlamda müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox mühüm bir addım idi.

Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi iri layihələr regional əməkdaşlıqda Azərbaycanın aparıcı rolunu təsdiqlədi və ölkəmizi Cənubi Qafqazda əsas enerji qovşağına çevirdi.

1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası Ulu Öndərin rəhbərliyi ilə hazırlandı və demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun təməlini qoydu. Dövlət-vətəndaş münasibətləri, insan hüquqları, mətbuat azadlığı və seçki sistemi kimi institutlar bu hüquqi sənəddə öz əksini tapdı.

Bundan başqa, görkəmli dövlət xadiminin təşəbbüsü ilə həyata keçirilən təhsil islahatları, mədəni irsin qorunması, gənclər siyasəti və Azərbaycan diasporunun formalaşdırılması prosesi Onun çoxşaxəli və uzaqgörən idarəçilik fəlsəfəsini əks etdirir.

Beş il əvvəl Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə, bununla da ərazi bütövlüyümüzün təmin olunması və Qarabağın azadlığı məhz Ulu Öndər Heydər Əliyevin illərlə qurduğu dövlətin və xalqla bir olan siyasətin nəticəsidir.

Azad edilən ərazilərdə bərpa və quruculuq işləri, Böyük Qayıdış Proqramı, "ağıllı kənd" layihələri, beynəlxalq tədbirlərdə Azərbaycanın fəal mövqeyi – bunlar hamısı Ulu Öndərin irsinin bugünkü davamıdır.

Dahi rəhbər təkcə bir siyasətçi, dövlət başçısı deyil, həm də bir məktəb, bir ideologiya, bir yol idi. Onun yolu xalqın yoludur. Bu gün hər bir azərbaycanlı bu yolun davamçısı olaraq öz fəaliyyəti və mövqeyi ilə Ulu Öndərin irsinə sadiqdir.

Ulu Öndərin ideyaları yaşadıqca Azərbaycan yaşamaqda, inkişaf etməkdə və güclənməkdə davam edəcəkdir.

**Xəzəngül ORUCOVA**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin deputatı*

Azərbaycan xalqı öz tarixində bir çox görkəmli şəxsiyyətlər yetirmişdir. Lakin bu şəxsiyyətlər arasında eləsi var ki, onun adı təkcə bir dövrün deyil, bütöv bir epoxanın simvoluna çevrilmişdir. Bu böyük şəxsiyyət xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Dahi öndərin siyasi irsi xalqına və dövlətinə xidmət yoludur. Qürurvericidir ki, müstəqilliyin qorunmasında və möhkəmləndirilməsində Ulu Öndərin əvəzsiz rolu tariximizdə qızıl hərflərlə yazılıb.

Mayın 10-da Azərbaycan xalqı hər il olduğu kimi Ulu Öndərin doğum gününü böyük ehtiram və qürur hissi ilə qeyd edir. Bu gün yalnız bir xatirə günü deyil, həm də milli yaddaşımızın və dövlətçiliyimizin gücləndiyi, gələcəyə olan inamımızın bir daha təcəssüm tapdığı gündür.

1969-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə ölkədə sosial-iqtisadi və mədəni inkişafın yeni mərhələsi başlandı. Məhz onun təşəbbüsü və gərgin əməyi sayəsində o dövrdə Azərbaycan Sovet İttifaqı miqyasında qabaqcıl respublikalardan birinə çevrildi. Dahi rəhbər istedadlı gənclərin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsi, elm, təhsil və səhiyyənin inkişafı üçün geniş imkanların yaradılması ilə gələcəyin milli kadr potensialının əsasını qoydu.

Onun "xalq üçün yaşamaq və çalışmaq" prinsipi ilə qurduğu siyasət təkcə Azərbaycanın deyil, bütövlükdə, türk və İslam dünyasının siyasi tarixində özünəməxsus yer tutur.

1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə əldə etmiş Azərbaycan ağır daxili siyasi çəkişmələr, iqtisadi gerilik və Ermənistanla aparılan müharibənin fəsadları ilə üz-üzə qalmışdı. Belə bir mürəkkəb dövrdə, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan dahi siyasət xadimi, ölkəni anarxiyadan və parçalanmadan xilas etdi. Onun müdrik və uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik təmin olundu, dövlət institutları formalaşmağa başladı, beynəlxalq əlaqələr genişləndi.

1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın neft strategiyasının əsasını qoydu və ölkəmizi dünya iqtisadiyyatına inteqrasiya yoluna çıxardı. Bu siyasət nəticəsində Azərbaycan regionun enerji və logistika mərkəzinə çevrildi.

Ümummilli LİderimIz təkcə bir siyasətçi və dövlət başçısı deyildi. O eyni zamanda Azərbaycançılıq məfkurəsinin banisi kimi milli birliyin və vətənpərvərlik ideyasının əsasını qoydu. Dahi rəhbərin təşəbbüsü ilə 1995-ci ildə qəbul edilən Konstitusiya hüquqi və demokratik dövlət quruculuğunun möhkəm bünövrəsini təmin etdi.

Ulu Öndərin siyasi fəaliyyəti hər zaman milli maraqlara əsaslanıb. O, xalqın istəklərini və ehtiyaclarını hər zaman ön planda tutaraq dövlət idarəçiliyində sosialyönümlü, balanslı və gələcəyə hesablanmış siyasət yürüdüb.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin müəyyən etdiyi strateji kurs uğurla davam etdirilir. Məhz bu irsin davamı olaraq Azərbaycan 44 günlük Vətən müharibəsində böyük Qələbə qazandı, ərazi bütövlüyümüz təmin edildi və Qarabağ torpaqları azad olundu. Bu tarixi zəfər Ulu Öndərin siyasi xəttinin real nəticəsidir.

Azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, Böyük Qayıdış Proqramı, sosial rifahın yaxşılaşdırılması və ölkənin beynəlxalq nüfuzunun artması – bütün bunlar Heydər Əliyev siyasəti yaşayır və inkişaf edir deməyə tam əsas verir.

Görkəmli dövlət xadimi öz xalqını zamanın ən çətin sınaqlarından uğurla çıxaran nadir liderlərdən biridir. Onun həyat yolu və fəaliyyət prinsipləri gələcək nəsillər üçün bir örnəkdir.

Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq, onun ideyaları isə daim yolumuzu işıqlandıracaqdır.

**Sevinc HƏSƏNOVA**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin deputatı*

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq forum

Azərbaycan Respublikası Gənclər Fondu, Naxçıvan Dövlət Universitetinin dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının (ATGTİ) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "EAST-WEST International Youth Partnership Forum 2025" adlı beynəlxalq forum keçirilib.

Öncə forum iştirakçıları dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov, Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktor vəzifəsini icra edən Qədir Xəlilov və Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının (ATGTİ) sədri Rəşad Zeynalov açılış nitqi ilə çıxış edərək forumun əhəmiyyətindən və Ümummilli Lider Heydər Əliyevin gənclərə verdiyi dəyərdən bəhs ediblər.

Tədbir rəsmi hissə yekunlaşdıqdan sonra bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universiteti nəzdindəki Naxçıvan Musiqi Kollecinin tələbələrinin ifasında musiqilər dinlənilib.

Sonra forum çərçivəsində bir sıra panel müzakirələr keçirilib. İlk olaraq "Qlobal çağırışlar və regional perspektivlər: gənclərin rolu və mədəniyyətlərarası liderlik" mövzusunda panel müzakirə baş tutub. Paneldə Naxçıvan Dövlət Universitetinin İnsan resursları və hüquq şöbəsinin müdiri Əziz Qasımov, Azərbaycan Respublikası Gənclər Fondunun Gənclər Təşkilatları ilə iş şöbəsinin müdiri Orduxan Qəhrəmanzadə, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri vəzifələrini müvəqqəti icra edən Şövqi Əliyev və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri İlahə Haqverdiyeva spiker qismində çıxış ediblər.

Panel iştirakçıları iqlim dəyişikliyi, dayanıqlı inkişaf, mədəniyyətlərarası əməkdaşlıq və bu proseslərdə gənclərin fəal iştirakı mövzularında fikirlərini bölüşərək mövcud çağırışlara qarşı birgə həll yolları haqqında müzakirələr apardılar.

Növbəti panel müzakirə "Mədəniyyətlərarası körpülər: tələbə gənclərin yeni regional rolu" mövzusunda keçirilib. Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Kamal Nağılının moderatorluğu ilə keçirilən paneldə Tanzaniyadan Jhon Onesmo Ngowi, Koreyadan Park Hyunsok, Türkiyədən Yasemin Çalışqan və Pakistandan Tamjeed Jawad Ullah spiker kimi çıxış ediblər. Onlar öz ölkələrinin gənclər siyasəti, mədəni dəyərləri, beynəlxalq təcrübələri və sosial fəallıq imkanları barədə danışaraq müxtəlif ölkələrdən olan gənclər arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

# Əziz Şuşa, biz əbədi olaraq qayıtmışıq!

*Həmin gün qara hərflərlə yazılmışdı tariximizə. Alınmaz qala Şuşamız satılmışdı, xainlərin əli ilə pay verilmişdi düşmənə. Həmin Şuşa ki, tarixboyu düşmən üçün alınmaz olmuşdu. O Şuşa ki Ağa Məhəmməd şah Qacarın qoşunlarına təslim olmamışdı. O Şuşa ki orada Pənahəli xanın, Vaqifin, Xan qızı Natəvanın izləri vardı. Həmin Şuşa ki xarıbülbülü, Çətir şəlaləsi, Topxana meşəsi, Cıdır düzü ilə heyran qoyurdu hər kəsi. Şuşalı qadınların "Ətəyimizə daş doldurub düşmənin başına töksək, o, Şuşaya yaxın gələ bilməz", – dediyi Şuşa sapı özümüzdən olan baltaların köməyi ilə peşkəş verildi erməniyə. Satıldı Xocalı, Kəlbəcər kimi. İllərlə nə az, nə çox, bir igidin ömrü qədər gözü yollarda qaldı gözəl Şuşamızın. O öz yaxınlarının səsini, isti nəfəsini axtarırdı, donurdu yad baxışlardan, sinəsi yanırdı, tüstüsü göylərə sovrulurdu dağıdılanda tarixi abidələri, nəfəsi kəsilirdi sinəsinə düşmən əsgəri ayaq basanda, gözləri dolurdu bağrında erməni bayrağı dalğalandıqca, bulaqları qurur yurdu torpağında Azərbaycan musiqisi ilə yallı gedən düşmən əsgərini görəndə. Şuşasız keçdi 28 ilimiz... Öz doğma yurdunu görmədən neçə nisgilli insan köçdü, Şuşasız şuşalılar gəldi dünyaya həmin illərdə... Şuşasız 28 il... Bu xalq nələr yaşadı, nələrə dözdü, amma əyilmədi, ümidini itirmədi... Artıq beş ildir ki, Şuşanın azadlığını qeyd edirik. Azad Şuşada hər səhər günəşi, gecələr ayı görmək bizim üçün bayramdır, qələbədir. Hər bir azərbaycanlı üçün belədir, amma şuşalılar üçün iki qat sevincdir illər sonra Şuşaya qayıtmaq. Bugünkü müsahiblərim də elə onlardan bir neçəsidir.*

## Prezident İlham ƏLİYEV:

**"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"**





Elman Məmmədov da ailəsi ilə birlikdə bu sevinci yaşayanlardandır. Onunla söhbət zamanı keçmişi yada salır və deyir:

"Həmin illərdə yenicə qazanmışdıq müstəqilliyimizi, hakimiyyət isə öz mənafeyini güdürdü, xalqı düşünən dahi oğlunu isə Bakıya yaxın qoymurdular. Ta o vaxta kimi ki, düşmən hücumu ilə bərabər qardaş qırğını ilə də üzləşdilər. Ulu Öndərin hakimiyyətə gəlməyi ümid işığı yandırdı ürəyimizdə. İllər bir-birini əvəz edir, biz heç ümidimizi itirmirdik. Bilirdik, əmin idik ki, bizim olan yenə özümüzə qayıdacaq. İnanırdıq, dahi rəhbərin davamçısı bizə böyük qələbəni yaşadacaq. Bu xalq əmin idi, çünki görmüşdü, şahid olmuşdu Ulu Öndərin xalq sevgisinə Onun bu milləti ən çətin vəziyyətdən qurtarmasına.

Və həmin tarix gəldi, Tanrı haqqımızı haqq etdi... 27 sentyabr səhəri günəş də fərqli doğuldu, Qarabağın səmasında, hamımızın uzun illərdir, arzuladığı həmin səhər. Bəli, həmin gün bu millət tarixin yenilməz səhifəsini yazmağa başladı. Azərbaycan əsgəri bağrımızdakı yaranı öz canı ilə sağaltdı. Hissə-hissə, ovuc-ovuc qayıtdı yurdumuz. Vətən müharibəsinin ilk günlərindən gözü yolda, qulağı səsdə idi hər kəsin. Düşməndən azad edilən hər qarış üçün sevinirdik və həsrətlə Şuşamızı gözləyirdik. Ali Baş Komandanın ***"Şuşa, sən azadsan"***, – deməyini. Bu şəhərdə dünyaya gəlməyən, o şəhəri görməyən hər bir azərbaycanlı Şuşanın azadlığını həsrətlə gözləyirdi. Və həmin gün gəldi... Vətən müharibəsinin 42-ci günü igid Azərbaycan əsgəri bizə ən gözəl günü yaşatdı".

Evin xanımı Mehriban Məmmədova yada salır o günləri deyir ki, Şuşanı tərk etmək məcburiyyətində qalanda qızğın döyüşlər gedirdi. Bir neçə ay öncə Xocalıda baş verənlər bizi də dəhşətə salmışdı. Həmin günlərdə Bərdədə yerləşmək məcburiyyətində qalmışdıq. Qaynım, qardaşım döyüşlərdə iştirak edirdi. Qaynımın ölüm xəbəri gəlmişdi yas mağarı qurduğumuz günlərin birində onun hələ də Şuşada qaldığını öyrəndik. Düşmən Şuşanı işğal etdikdən 6 gün sonra gizli yollarla oradan ayrılıb yenidən döyüşlərə qatıldığını öyrənəndə hər kəs sevindi. Anam həmin günlərdə itkin düşdü. Hələ indiyə kimi nə anamdan, nə də bacımın yoldaşından xəbər yoxdur. Düz 27 il gözümüz yollarda qaldı bizim. Hələ indi də Şuşada gözüm anamı axtarır. Vətən müharibəsində qələbə qazandığımız hər gün Tanrıya şükür edirdim. Ən böyük qürurum isə Şuşasız şuşalı olan oğlumun Vətən savaşında qazanılan qələbədə payı olanlardan biri olması idi. Oğlum könüllü olaraq döyüşlərə qatıldı və şərəfli bir ad qazandı qalib əsgər, Qarabağ qazisi. Ötən il Şuşa şəhərindəki mənzilimizin açarını ölkə başçısı bizə təqdim edəndə qürurum min qat oldu. Tanrı dövlətimizi var eləsin.

Digər müsahibim Nazimə Məhərrəmova da azad Şuşanın qələbədən sonra evinə dönən ilk sakinlərindən olduğu üçün qürurludur.

"Şuşanın azadlıq günündən daha gözəl gün ola bilməzdi bu xalq üçün. Çünki həmin gün Şuşanın köksünə illərdir, sancılan, onun nəfəsini kəsən o yad cismi – erməni bayrağını qoparıb ayaqlar altına atdı igid oğullarımız. Çox çətin günlər yaşadıq, amma bir gün belə ümidimizi itirmədik. Çünki bilirdik ki, bu xalq heç vaxt torpağını güzəştə getməyəcək. Qardaşım və həyat yoldaşım Birinci Qarabağ müharibəsində iştirak edib. Ailəmiz çox çətinliklər çəkdi, məcburi köçkün olduq. Amma ümidimiz hər zaman var idi. Şükür Tanrıya ki, ordumuz bizə qələbə sevinci yaşatdı. İnanırsız, o hissləri dilə gətirmək mümkün deyil. Torpaqlarımız ardıcıllıqla işğaldan azad olunduqca sevincimizin həddi-hüdudu yox idi. Xalqımızın orduмuza köməyi bizim gözəl bir xalq olmağımızın simvolu idi. Nəhayət, "Şuşa AZADDIR" sözləri cənab Ali Baş Komandan tərəfindən səsləndikdə biz hönkür-hönkür ağladıq. Qardaşım Şuşamızın azad olunması xəbərini eşitdi, lakin buranı görmək ona nəsib olmadı. Həyat yoldaşım da I Qarabağ müharibəsinin veteranıdır. O da qayıdış günümüzü görmədi.

2024-cü il may ayının 10-dan Şuşada daimi yaşamaq üçün yeni evlə təmin olunduq. Və hazırda doğma Vətənimdə yaşayıram, övladlarımla, nəvələrimlə.

Çox sevincliyəm, çünki hər səhər Şuşada oyanıram. Bunun necə bir xoşbəxtlik olduğunu ancaq torpaq həsrəti yaşayanlar bilər. Var olsun, dövlətimiz, ordumuz, qəhrəman şəhidlərin ruhu şad olsun.

2020-ci ilə kimi Şuşa həsrəti ilə yanırdı qəlbimiz. Artıq beş ildir, qəlbimiz sevincdən qanad açır, gözlərimiz gülür Şuşa deyəndə. Çünki yurdumuz azaddır. Hər bir azərbaycanlının sevimli şəhəri Şuşa öz igid oğullarının canı, qanı bahasına azad edildi. Doğmalarının əlləri ilə yenidən qurulur, dirçəldilir, əvvəlki gözəl günlərinə qovuşur. Bu gün torpağı da, daşı da, gül açıb Şuşanın, çünki bu bahar başqa bahardır. Çünki o bilir ki, artıq qoynunda açan xarıbülbülün ətrini Azərbaycan əsgəri alır. Çünki o bilir ki, bundan sonrakı gələn yazı, yayı da, payızı da neçə-neçə fəsilləri də Cıdır düzündə qarşılayıb, İsa bulağından yola salacaq əzizləri ilə birlikdə.

**Ramiyə ƏKBƏROVA**



**Şuşa. Azərbaycanın qədim mədəniyyət paytaxtı. 48 illik həyat səhifəmdə Şuşanı heç görmədim, ancaq çəkilən kadrlardan, yazılan məqalələrdən, kitablardan oxudum. Öyrəndim. Öyrəndim ki, Şuşa kimi bir incini elə görmədən də sevmək olarmış. O torpağa ayaq basmadan da doğmalığını, sevgisini hiss etmək mümkünmüş. Şuşa təpədən-dırnağa Azərbaycançılıq möhürü ilə tarixiləşmiş qədim yurd yerimiz, mədəniyyət ocağımızdır.**

# Şuşanın dağları...

***Dəyişməyən təqvim***

8 may. Bu tarix illərlə ürəyimizi sızlatdı. O gün ki Şuşa erməni faşizminin əsarətində sahiblərinin yolunu gözləyirdi. Müstəqilliyimizi daha yenicə qazandığımız dönəmdə, milli ordunun olmadığı bir ərəfədə erməni quldurları yaranan vəziyyətdən istifadə edərək illərlə xəyalında olduqları torpaqları qəsb etməyə başladılar. Beləcə, 1992-ci ilin 8 may tarixində Şuşa işğalın qurbanına çevrildi. Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Bununla kifayətlənməyən erməni vandalları muzeyləri talan etdilər, tarixi-mədəniyyət abidələrini, məscidləri dağıtdılar, bir sözlə, şəhərin altını üstünə çevirdilər. Azərbaycanlılara məxsus izləri silmək üçün...

Qarabağın mirvarisi sayılan Şuşanın başı tarixən çox bəlalar çəkmişdi, saysız-hesabsız tarixi hadisələrə şahidlik etmiş, bəzən də döyüş meydanına çevrilmişdi. Şuşanın dağlarına çökən qara bulud bu cənnət diyarın simasını başdan-ayağa dəyişmişdi.

Düz 28 il Şuşanın dağları başı dumanlı qaldı. Qarabağın baş tacına uzanan qara əllər xan qızı Natəvanın, Bülbülün, Üzeyirin heykəllərinə qədər uzanmışdı. Daşdan yonulmuş sənət abidələrinə belə təhəmmül etməyən düşmən bu abidələri də güllələbaran etmişdi.

***Hicrin edibdi könlümü bərbad, ağlaram...***

"Çoxlar tutar bu halıma irad, ağlaram", – deyə həssas qəlbinin incə duyğularını poetikləşdirərək dövrümüzə yadigar saxlayan Natəvan Şuşa üçün çox işlər görmüşdü. Adını Şuşa ilə qoşa andığımız bu fədakar qadın yurdunun abadlığı üçün çalışmış, xeyriyyəçilik fəaliyyəti ilə əhali arasında böyük nüfuz qazanmışdı. Canından çox sevdiyi yurdu işğal altına düşəndə qəmli şeirlər yazan Natəvanın narahat ruhu illərlə Şuşa səmasında dolaşdı. Lakin Şuşa tərk edilməmişdi, yağmalanmışdı, gün gələcək, Natəvanın zəncirlənmiş ruhu xilas ediləcək, şəhidlərin qisası alınacaqdı.

***Yenilənən tarix***

Dünya hərb tarixində özünəməxsus iz buraxmış 44 günlük müharibə əsarətə, zülmə, barbarlığa qarşı yönəlmiş savaş idi, haqqın səsi, ədalətin təntənəsi idi. Xeyrin şər üzərində qələbəsi idi. Dünyaya sülh mesajı idi, dosta uzanan əl, düşmənə tuşlanan "dəmir yumruq" idi. 2020-ci il sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatı ordumuzun qələbəsi ilə başa çatdı və bu qələbə Şuşada elan olundu. Düşmənin illərlə istehkam qurduğu keçilməz səddini müzəffər Ordunun dəmir biləkli oğulları aşdı. Həyəcanla izlədiyimiz xəbərlərdə torpaqlarımızın qarış-qarış azad olunma müjdəsi, Ali Baş Komandanın qətiyyətli çıxışları, televiziya kanallarına verdiyi müsahibələr artıq bizim qələbənin astanasında olduğumuzdan xəbər verirdi. 2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində Şuşanın işğaldan azad olunması müjdəsini verdi. Şuşanın işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsinin həlledici anı oldu. 10 noyabr Bəyanatını imzalamaqla Ermənistan məğlubiyyəti qəbul etdi.

***"Əziz Şuşa, sən azadsan!"***

***"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"*** Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müraciətini hər birimiz böyük həyəcan, qələbə və sevinc hissi ilə qarşıladıq. İllərdir, gözlədiyimiz, həsrətində olduğumuz torpaqlar geri qaytarılmışdı canımız, qanımız bahasına. Bu, Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı idi.

Düşmənin özü də yaxşı bilirdi ki, bu torpaqların sahibləri gec-tez geri qayıdacaqlar. Ona görə də qəsb etdikləri əraziləri xarabaya çevirmiş, yaşanılmaz hala gətirmişdilər. Hətta xarici media nümayəndələri Ağdamı "Qafqazın Xirosiması" adlandırmışdı.

***"İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik".*** Ölkə başçısı qısa zamanda əsas diqqəti işğaldan azad olunan ərazilərin, o cümlədən Şuşanın bərpasına yönəltdi.

2021-ci il yanvarın 14-də Şuşaya ilk səfərini edən ölkə başçısı şəhərin, o cümlədən erməni vandalizminə məruz qalmış Vaqifin məqbərəsinin bərpası ilə bağlı lazımi göstərişlər verdi. Şair Xurşidbanu Natəvan, bəstəkar Üzeyir Hacıbəyli və opera müğənnisi Bülbülün büstləri bərpa olunaraq Şuşaya qaytarıldı. Füzuli şəhərindən Şuşaya Zəfər yolu çəkildi. Ölkə başçısının Qarabağa və Şərqi Zəngəzura hər səfəri mühüm infrastruktur layihələrinin gerçəkləşdirilməsi, mədəni irsin qorunması, sosial obyektlərin tikintisi və iqtisadi inkişaf sahəsində görülən işlərlə şaxələndi. Zəfərdən dərhal sonra Şuşa şəhərində infrastrukturun qurulması ilə yanaşı, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər görülməyə başlandı. Yaşayış komplekslərinin təməli qoyuldu. Quruculuq işlərinin təşkilində çeviklik, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirildi, Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edildi. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradıldı. 2021-ci ilin may ayında Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməsi haqqında ölkə başçısının tarixi Sərəncamı imzalandı. Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili Şuşanın mədəni dirçəlişinin göstəricisi kimi əlamətdar oldu. Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması yönündə atılan addımlarda Ulu Öndərin adını daşıyan fondun da müstəsna xidmətləri var.

5 yanvar 2022-ci il tarixdə ölkə başçısı Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncam imzaladı. Təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhərinin 270 illiyi təntənəli şəkildə qeyd olundu. Həmin il tarixi zəfərdən sonra ilk dəfə dünya azərbaycanlıları Şuşada bir araya gəldi. Dünya Azərbaycanlılarının V Qurultayının – Zəfər Qurultayının Şuşada keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan ölkə başçısı İlham Əliyev deyib: ***"Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir".***

Qısa zamanda dəyişən, gözəlləşən Şuşa 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Prezident İlham Əliyevin rəhbərliyi altında Şuşa şəhərinin qısa müddət ərzində yenidən qurulması, tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan intensiv işlər Şuşanı beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi mühüm funksiyanın daşıyıcısına çevirdi. Ötən il iyulun 20-də "Yalan məlumatların ifşası: dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda əlliyə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu bir araya gəldi. Şuşada həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycan dövlətinin sülhməramlı missiyasına dünya yenidən şahidlik etdi.

2024-cü ilin 10 may günü Şuşa növbəti dəfə bayram əhval-ruhiyyəsinə bürünmüşdü. İllər sonra öz doğma yurduna qayıdan sakinlərini qəbul edirdi. Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərə köçmüş ilk sakinlərin sevincini bölüşdülər. Ulu Öndər Heydər Əliyevin doğum günündə şuşalılara bir dünya sevinc bəxş edən ölkə başçısının tarixi çıxışı isə yaddaşlardan silinməyəcək: ***"Erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz Azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə, necə deyərlər, doğma şəhər sayırdılarsa, Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq".***

Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva növbəti səfərləri çərçivəsində bu il martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Şuşa küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar. Bildirək ki, Yeni Şuşa məscidinin təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulub. Məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi göz oxşayacaq. Onun memarlıq həlli rəmzi xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə məscidin forması 8 rəqəmini əks etdirəcək və bu, noyabrın 8-də Şuşanın işğalçılardan azad olunmasını, Zəfər Gününü simvolizə edəcək. Bəli, haqq etdiyimiz zəferi.

8 may tarixi isə artıq arxivin səhifələrinə köçdü. Tarix kitablarında qaldı. Qalmalıdır ki, erməni faşistlərinin xalqımızın başına gətirdiyi faciələr heç vaxt unudulmasın. Gələcək nəsillər də bilsinlər ki, başı dumanlı Şuşa dağlarını igid ataları, babaları necə qəhrəmanlıqla şücaət göstərərək, canını fəda edərək aşıblar. O qara dumanı Şuşanın dağlarının başından çəkmək üçün...



✍ **Ruhiyyə RƏSULOVA**

# Azərbaycan-Vyetnam əlaqələri:



# tarixi ənənələr üzərində yeni mərhələyə doğru

Azərbaycan dövlətinin apardığı çoxvektorlu, balanslı xarici siyasət nəinki qonşu dövlətlərlə münasibətlərinin möhkəmlənməsinə töhfələr verir, eyni zamanda uzaq coğrafiyada yerləşən ölkələrlə də əlaqələrinin güclənməsində böyük rol oynayır. Tarixi ötən əsrin 50-ci illərinə gedib çıxan Azərbaycan-Vyetnam dostluq münasibətləri də bu baxımdan nümunə səviyyəsindədir. Ölkələrarası əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyması nöqteyi-nəzərdən mayın 7-də Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfəri yeni əməkdaşlıqlara imza atılması, faydalı görüşlərin keçirilməsi, qərarların verilməsi ilə yadda qaldı.



Azərbaycan-Vyetnam əlaqələrinin qurulması prosesi ötən əsrin ortalarına təsadüf edir, başqa sözlə, bu iki uzaq coğrafiyada yerləşən respublikanı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri yaxınlaşdırır. 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Azərbaycan SSR-ə səfəri ilə təməli qoyulan ikitərəfli münasibətlər həmin dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Ümummilli Lider Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfər zamanı keçirdiyi görüşlərlə daha da möhkəmlənib. 2014-cü ildə Prezident İlham Əliyevin və bir il sonra Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın qarşılıqlı səfərləri iki dövlət arasında münasibətlərdə yeni səhifə açıb və gələcək inkişafa təkan verib. Ümumiyyətlə, Azərbaycanla Vyetnam arasında neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrdə əlaqələr mövcuddur, iqtisadi əməkdaşlıq sabit müsbət dinamika şəraitində davam edir. Bu baxımdan onu diqqətə çəkmək olar ki, 2025-ci ilin ilk üç ayında ikitərəfli ticarət dövriyyəsinin həcmi 127,2 milyon dollara, Vyetnama Azərbaycan məhsullarının – əsasən, xam neftin ixracı 91,8 milyon dollara çatıb. Azərbaycana idxal isə 35,4 milyon dollar təşkil edib. Müqayisə üçün bildirmək yerinə düşər ki, 2024-cü il ərzində ölkələr arasında ticarət əməliyyatlarının həcmi 223,9 milyon dollar təşkil edib və builki üçaylıq nəticə iqtisadi əlaqələrin tədricən artdığını göstərir.

Göründüyü kimi, ticarət dövriyyəsindəki nəzərə çarpan artım göstəricisi məhz böyük mənada neft satışından asılıdır və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın səfərindəki məqsəd də gələcəkdə bu asılılığı aradan qaldırmaqdır. Prezident İlham Əliyev də liderlərin məhdud, geniştərkibli görüşləri və sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında bu məqama xüsusi toxundu: ***"Əfsuslar olsun ki, iqtisadi-ticari istiqamət üzrə ticarət dövriyyəsinin dinamikası Azərbaycanın Vyetnama neft satışından asılıdır. Neft satışı yüksək səviyyədə olanda ticarət dövriyyəsi artır, azalanda azalır. Əlbəttə, biz ticarət dövriyyəmizi daha da balanslaşdırılmış formada görmək istərdik və bunun üçün, təbii ki, qarşılıqlı informasiya mübadiləsi lazımdır. Hansı layihələr ölkələrimizdə həyata keçirilir, investisiya imkanları nədən ibarətdir, qaydalar, qanunvericilik bazası, vergi inzibatçılığı – bütün bu məsələlər biznes dairələri üçün gərək aydın olsun. Belə olan halda əminəm ki, ticarət dövriyyəsi təkcə neft amilindən asılı olmayacaq".***

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfərinin uğurlu nəticələri sırasında, təbii ki, ən mühüm məqam iki ölkə arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın imzalanması oldu. Bununla da, yarım əsrlik ikitərəfli əlaqələr strateji tərəfdaşlıq mərhələsinə yüksəldi. Bu tərəfdaşlığın strategiyası baxımından Birgə Bəyanatda yer alan müddəalar sırasında bir neçə məsələni diqqətə çəkmək olar ki, onlardan birincisi məhz siyasi yaxınlaşmanın təminidir. Yəni partiya, dövlət, parlament və rayonlar kimi bütün səviyyələrdə əlaqələri və təmasları fəallaşdırmaq əsas məqsədlər sırasındadır. Gələcəkdə Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin fəallığı çərçivəsində imzalanmış razılaşmaların icra edilməsi, mövcud əməkdaşlıq mexanizmlərinin səmərəliliyinin artırılması və yeni mexanizmlərin yaradılması imkanlarının araşdırılması prioritet hədəflərdəndir.

Digər bir mühüm müddəa isə əmtəə dövriyyəsi və sərmayələri artırmaq üçün iki ölkənin işgüzar dairələrini bir araya gətirmək, energetika, neft və qazla yanaşı, bütün sahələrdə əməkdaşlıq etmək, dəmir yolları, dəniz yolları, kənd təsərrüfatı sahələrində digər əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparmaqdır. Müdafiə və təhlükəsizlik sahələrində əlaqələrin fəallaşdırılması, informasiya təhlükəsizliyi, transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində münasibətlərin gücləndirilməsi də Birgə Bəyanatda yer alıb. Liderlər görüşlərin nəticəsi olaraq mədəniyyət, idman və turizm, təhsil, xalqlararası təmaslar və regional sahələrdə əməkdaşlığı genişləndirmək, idman yarışlarının təşkilində təcrübə mübadiləsi, eləcə də turizmi təşviq etmək barədə razılığa gəldilər. Prezident İlham Əliyev mətbuata bəyanatında da bütün bu məsələlərə toxundu, müxtəlif sahələr üzrə ikitərəfli əməkdaşlığın güclü potensiala malik olduğunu diqqətə çatdırdı. Sitat: ***"Bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Bu gün bu və digər istiqamətlər üzrə məsələlər geniş müzakirə edildi. Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik".*** Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi də, öz növbəsində, iki ölkə arasında siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə edildiyini bildirdi, Birgə Bəyanatın ölkələrin münasibətlər tarixində yeni dövr, yeni səhifə açdığını vurğuladı, yaxın zamanlarda ikitərəfli münasibətlərin dərinləşdirilə və genişləndirilə biləcəyinə dair mühüm mesajlar verdi.

Azərbaycanla Vyetnam arasında əlaqələr həm də beynəlxalq təşkilatlar, siyasi platformalar üzərindən də uğurla inkişaf etdirilir, hər iki ölkə BMT, Qoşulmama Hərəkatı səviyyəsində birgə fəaliyyətdə maraqlıdır. Eyni zamanda müasir çağırışlara uyğun yeniləşmənin, yeni texnologiyaların iqtisadiyyata tətbiqinin tərəfdarı olan respublikalar "yaşıl enerji"dən istifadənin təşviqinə, istehsalına çalışırlar. Bir sözlə, tarixin çətin sınaqlarından keçən Azərbaycan-Vyetnam əlaqələrində mövqe kəsişməsi böyükdür, fikirlər tamamilə üst-üstə düşür ki, bu da səfərin uğurlu nəticələr verməsində, strateji tərəfdaşlıqda ən vacib amildir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Yəni bu gün bir çox istiqamətlər üzrə apardığımız müzakirələr əsnasında görürük ki, fikir ayrılığı yoxdur. Əksinə, biz demək olar ki, vahid mövqedən çıxış edirik. Baxışlarımızda da bir çox oxşarlıq var. Baxmayaraq ki, aramızdakı məsafə kifayət qədər uzundur, bizi birləşdirən nəqliyyat infrastruktur layihələri haqqında da bu gün danışdıq. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilərik. Bir sözlə, əminəm ki, səfərin çox gözəl nəticələri olacaq".***

**Nail ƏSGƏROV**

## Prezident İlham ƏLİYEV:

***"Bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Bu gün bu və digər istiqamətlər üzrə məsələlər geniş müzakirə edildi. Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik."***

# Vətənə və xalqa həsr olunan şərəfli ömür





*Xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 102-ci ildönümüdür. Şərəfli ömür yolu, örnək dolu siyasi fəaliyyəti ilə xalqımızın tükənməz və əbədi məhəbbətini qazanmış böyük Heydər Əliyevin adı tariximizə Ulu Öndər, böyük şəxsiyyət, görkəmli dövlət xadimi, dünyaca tanınmış siyasət adamı, müstəqilliyimizin xilaskarı, qüdrətli sərkərdə, ən böyük azərbaycanlı kimi yazılmışdır. İllər, qərinələr, əsrlər ötəcək, nəsillər bir-birini əvəzləyəcək, amma Ümummilli Liderimiz Heydər Əliyevin adı Azərbaycanda, eləcə də dünya tarixində əbədi yaşayacaq, xatirəsi hər zaman yüksək ehtiramla yad olunacaqdır.*

### *Quruculuq dövrü, intibah mərhələsi*

Ömrünün 34 ilini öz dövlətinin inkişafına və xalqının rifahına həsr etmiş Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün illər quruculuq dövrü, Azərbaycanın intibah mərhələsi kimi səciyyələndirilir. Müasir tariximiz təsdiq edir ki, ölkəmizi ən çətin və gərgin dövrlərdə məhz Heydər Əliyevin dühası xilas etmişdir. Ona həvalə olunan missiyaları hər zaman qətiyyətlə yerinə yetirən bu dahi şəxsiyyət bütün tarixi şəraitlərdə xalqımızın ümidlərini layiqincə doğrulmuşdur.

Bu mənada, Heydər Əliyevin hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi müasir dövlətçilik tariximizin mühüm mərhələlərindən biridir. Sovetlər İttifaqı dövründə Heydər Əliyevə qədər və ondan sonra respublikamıza bir çoxları rəhbərlik etmişdir. Amma onların heç birinin rəhbərliyi Heydər Əliyev qədər respublikamızın, dövlətimizin inkişafına və xalqımızın milli özünüdərkinin, mənafeyinin yüksəlişinə xidmət etməmişdir. Bu baxımdan Ulu Öndər sovet illərində Azərbaycanı, sadəcə, ittifaqın geridə qalmış üzvündən inkişaf etmiş sənaye respublikasına çevirmədi. Azərbaycanı iqtisadi və sosial göstəricilərinə görə ittifaq üzvləri arasında 14-cü yerdən qabaqcıllar cərgəsinə yüksəldən görkəmli dövlət xadimi həm də sovet ideologiyasına qarşı çıxmağın son dərəcə təhlükəli olduğu bir şəraitdə həyata keçirdiyi cəsarətli tədbirlərlə xalqımızın milli-mədəni və mənəvi dəyərlərini yaşatmış, qorumuş və gələcək nəsillərə ötürülməsini təmin etmiş oldu. Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında deyildiyi kimi: *"Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soykökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".*

Bəli, dahi şəxsiyyətin Azərbaycana sovet dövrü rəhbərliyinin ən böyük nəticələrindən biri də budur ki, həyata keçirdiyi tədbirlərlə, planladığı işlərlə gələcək müstəqilliyimizin əsaslarını formalaşdırmış, suverenliyimizin etibarlı təməllərini yaratmışdır. Ulu Öndərin o illərdə həyata keçirdiyi bütün işlərin alt qatlarında məhz Azərbaycanın dövlət müstəqilliyi və suverenliyi ideyalarının formalaşmasına və reallaşmasına xidmət dayanıb.

### *Dövlətçilik tariximizin şərəfli səhifəsi*

Ulu Öndərin öz xalqına layiqli və şərəfli xidmətinin növbəti nümunəsini Azərbaycanın müstəqilliyinə gedən tarixi yolda cərəyan edən proseslərin fonunda görmək mümkündür. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verməsinə baxmayaraq, dahi rəhbər yenə də öz xalqının yanında idi. Ulu Öndərin hələ 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən dərhal sonra cənab İlham Əliyevlə birgə respublikamızın Moskvadakı daimi nümayəndəliyinə gələrək etiraz səsini ucaltması, xalqımıza qarşı törədilən ağır cinayətlərə görə böyük cəsarətlə SSRİ rəhbərliyinin məsuliyyət daşıdığını bəyan etməsi dövlətçilik tariximizin ən mühüm siyasi hadisələrindən biridir.

Bu hadisə bir daha göstərdi ki, məhz Ümummilli Liderimizin siyasi dühası yenicə baş qaldırmış milli azadlıq mübarizəsinin vüsət almasına xidmət etmişdir. Bu mənada, Ulu Öndərin 1990-cı ilin iyul ayında Azərbaycana, doğulub boya-başa çatdığı Naxçıvana gəlməsi müstəqillik uğrunda mübarizənin daha mütəşəkkil forma almasına gətirib çıxarmışdır. Belə ki, Naxçıvan ictimaiyyətinin təkidi ilə 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Ali Məclisinə və Azərbaycan Ali Sovetinə deputat seçilən dahi şəxsiyyətin bu mərhələdə həyata keçirdiyi siyasi fəaliyyət ölkəmizin müstəqilliyi uğrunda gedən proseslərin keyfiyyətcə yeni mərhələyə keçməsinə səbəb olmuşdur. O dövrdə Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlarla 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağının yenidən rəsmi bayraq kimi təsbit edilməsi, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi, SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi öz xalqının arzuları uğrunda dönmədən mübarizə aparmağın, milli fədakarlığın əsl örnəyi idi. Hansı ki bütün bunlar ən cəsarətli siyasi-hüquqi addımlar olaraq xalqımızın müstəqillik yollarını daha da işıqlandırmışdır.

Azərbaycanın müasir dövlətçilik irsinin şanlı səhifələri olan qətiyyətli addımları ilə yanaşı, Ulu Öndər həm də Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən işğalının qarşısını aldı. 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin böyük müdrikliklə həyata keçirdiyi tədbirlər həm də muxtar respublikanı düşmənin digər məkrli planlarından da xilas etdi. Məhz Heydər Əliyevin qətiyyəti nəticəsində keçmiş sovet hərbi hissələri muxtar respublikanı tərk edərkən indiyədək görünməmiş ilkə imza ataraq bütün silah və texnikalarını Azərbaycan Ordusunun yerli hissələrinə təhvil verdilər. Muxtar respublikanın müdafiəsi 1992-ci ilin avqust-sentyabr aylarında sözügedən hərbi hissələrin Naxçıvanı tərk etməsindən sonra daha da gücləndi.

Təəssüflə qeyd etməliyik ki, o illərdə Azərbaycana rəhbərlik edənlərin başıpozuqluğu, taleyüklü məsələlərə laqeyd münasibəti Naxçıvanın blokada vəziyyətini daha da dərinləşdirirdi. Məhz Heydər Əliyev kimi dünya siyasət nəhənginin və təcrübəli dövlət xadiminin qardaş Türkiyə və İranla yaratdığı əlaqələr o dövrdə Naxçıvandakı sosial-iqtisadi çətinliklərin azaldılmasında böyük rol oynadı. Ulu Öndərin sayəsində 1992-ci il mayın 28-də Azərbaycanla Türkiyə arasında "Ümid" körpüsünün istifadəyə verilməsi və digər tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı fəlakətlərdən xilas etdi.

Əlbəttə, Azərbaycan xalqı bütün bunları görür, dəyərləndirir və təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində yaranmış böhranlardan xilas olmaq üçün dahi şəxsiyyətin respublikamızda yenidən rəhbərliyə gəlişini arzu edirdi. 1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi də, əslində, bu ülvi niyyətdən irəli gəlirdi. Tariximizin mühüm siyasi hadisələrindən olan Yeni Azərbaycan Partiyasının yaradılması isə Ulu Öndər Heydər Əliyevin Azərbaycanı xilas etmək uğrunda növbəti tarixi missiyasının ilk addımlarından biri idi.

### *Müstəqilliyimizin xilaskarı, müasir Azərbaycanın banisi*

Təsis edilməsindən qısa müddət sonra Yeni Azərbaycan Partiyasının sıralarında artıq minlərlə, on minlərlə vətəndaş birləşdi və bu, böyük rəhbər Heydər Əliyevə olan inamın real göstəricisi idi. 1992-1993-cü illərin məlum hadisələri, respublikamızın düşdüyü dərin siyasi-hərbi böhran zamanı hər kəs əmin idi ki, Azərbaycanı bu bəlalardan yalnız Heydər Əliyev şəxsiyyəti xilas edə bilər. Hətta Heydər Əliyevi özünə rəqib görən və ona təzyiqlər edən ozamankı iqtidar da vəziyyətdən çıxış yolunu məhz Ulu Öndərin Bakıya gəlişində görürdü.

1993-cü il iyun ayının əvvəllərində Gəncə şəhərində baş verən hadisələrdən sonra vəziyyətə biganə qala bilməyən Ulu Öndərin Naxçıvandan Bakıya gəlişi xalqımızın ümidlərini, sabaha olan inamını özünə qaytardı. Heydər Əliyevin gəlişi ilə, əslində, hamı rahat nəfəs aldı. Çünki hər kəs, bütün Azərbaycan xalqı tam əmin idi ki, Heydər Əliyev Azərbaycanı bütün təhlükələrdən xilas edəcək. Proseslərin sonrakı gedişatı xalqın Ulu Öndəri hakimiyyətə dəvət etməkdə nə qədər haqlı, qabaqgörən və müdrik olduğunu göstərdi. Xalqımızın taleyinin, dövlətçiliyimizin müqəddəratının həll olunduğu 1993-cü ilin iyununda Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilərək idarəçilik sükanının arxasına keçməsi, əslində, onun ölkəmizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Ulu Öndərimiz Heydər Əliyev hər siyasətçinin öhdəsindən gələ bilməyəcəyi bu missiyanı qətiyyətlə yerinə yetirdi, Azərbaycanı labüd dağılmaqdan, məhv olmaqdan xilas etdi. Bu özünün dediyi kimi, ömrünün qalan hissəsini də xalqına həsr edən dahi Heydər Əliyevin xalq, dövlət və insanlıq qarşısındakı əvəzolunmaz fədakarlığı oldu. Ulu Öndər dövlətçiliyimizə qənim kəsilən dairələrin Azərbaycanı parçalamaq planlarını tamamilə puça çıxardı, dövlətçiliyimizin və müstəqilliyimizin əbədiliyini, dönməzliyini və sarsılmazlığını təmin etdi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

Aradan zaman ötdükcə, illər bir-birini əvəzlədikcə, müstəqil Azərbaycan uğurlarının sayını artırdıqca dahi rəhbər Heydər Əliyevin 1993-cü ildə həyata keçirdiyi xilaskarlıq missiyasının mahiyyətini, həmin mürəkkəb şəraitdə hansı çətinliklərə sinə gərərək qalib gəldiyini daha dərindən anlayırıq. Beləliklə, siyasi müdrikliyi və təcrübəsi ilə müstəqilliyimizi xilas edən Heydər Əliyev öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə, müasir və suveren Azərbaycan dövlətinin banisinə çevrildi.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il isə dövlətçilik tariximizin olduqca mühüm mərhələsidir. Çünki bu illər ərzində dahi rəhbər dövlətçiliyimizin etibarlı təməllərini yaratmış, hüquqi dövlət quruculuğunu həyata keçirmiş, müstəqilliyi hələ kövrək ikən respublikamızı inamlı inkişaf yoluna çıxarmışdır. Azərbaycanın bugünkü bütün uğurlarının, qələbələrinin, dövlət suverenliyimizin bərpa edilməsinin və sair strateji əsasları məhz o dövrdə formalaşmış və müstəqil Azərbaycan Respublikası dünya birliyində özünün layiqli yerini məhz Heydər Əliyevin böyük siyasəti, yuxusuz gecələri, müqayisəsiz zəhməti bahasına tutmuşdur.

### *Yüksəliş və möhtəşəm uğurlar dövrü*

Ümummilli Liderimizin yaratdığı və inkişaf yoluna çıxardığı müstəqil Azərbaycanın taleyi bu gün etibarlı əllərdədir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın qazandığı möhtəşəm və tarixi nailiyyətlər bir daha göstərir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin ideyaları həyata davamlı vəsiqə alır, arzuları bir-bir çin olur. Müstəqil Azərbaycanın 2003-cü ildən sonrakı tarixi həm də onu sübut edir ki, Heydər Əliyevin ideyaları güclü Azərbaycan, qüdrətli və sarsılmaz dövlətçilik, əbədi müstəqillik və yüksəliş deməkdir. Bu mənada, Prezident İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 21 il xalqımızın müstəqillik salnaməsinə Vətən müharibəsində qazandığı Zəfər tarixi, inkişaf, quruculuq, dövlətçiliyimizin qüdrətləndiyi və Azərbaycanın tarixinin ən güclü dövlətinə çevrildiyi dövr kimi həkk olunub.

Bu illər ərzində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsi olaraq Azərbaycan həm də regionda lider, dünyada isə söz sahibi olan dövlətə çevrilib və bunu şərtləndirən çoxsaylı nümunələr, siyasi-iqtisadi faktorlar var. Məsələn, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə artıq 20 ilə yaxındır ki, Azərbaycan nefti dünya bazarlarına ixrac olunur. Prezident İlham Əliyev qətiyyətinin təntənəsi olan Cənub Qaz Dəhlizi isə Azərbaycanın təbii qazını birbaşa Avropa dövlətlərinə ixrac edir. Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycan həm də qlobal nəqliyyat dəhlizlərinin keçdiyi unikal dövlətə çevrilib. Şimaldan Cənubi, Şərqdən Qərbə və əksinə, ən etibarlı, sürətli və operativ nəqliyyat yolları məhz Azərbaycandan keçir.

Ötən 21 ildə Azərbaycan bir müstəqil dövlət kimi o qədər möhtəşəm və saysız-hesabsız uğurlara nail olmuşdur ki, kənardan baxanda, həqiqətən, respublikamıza həsəd aparırlar. Prezident İlham Əliyev bu dövrdə Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasətini layiqincə davam etdirərək, zamanın çağırışlarına uyğun şəkildə daha zənginləşdirərək dünyada inkişafın Azərbaycan modelini yaratmış, ölkəmizin yüksəlişi üçün bütün fürsətləri və imkanları reallığa çevirmişdir. Artıq uzun illərdir ki, dünyada Azərbaycan adı çəkiləndə, barəsində deyəndə, sürətlə inkişaf edən, qlobal miqyasda güclü nüfuzu olan dövlət göz önünə gəlir.

Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevə və müstəqil respublikamıza qlobal miqyasda yüksək nüfuz qazandırmış və qazandırmaqdadır. Təsadüfi deyil ki, bütün bunları təmin edən Prezident İlham Əliyev həm də dünyanın nüfuzlu və ehtiram göstərilən siyasi liderləri ilə bir cərgədə dayanan, uca qaməti, yerişi, dik duruşu ilə hər kəsi heyran edən dövlət başçısıdır desək, yanılmarıq. Prezident İlham Əliyevin təkcə aprel ayında Çin Xalq Respublikasına etdiyi dövlət səfəri və bu səfərin dünyada yaratdığı əks-səda bütün bu deyilənlərin təsdiqidir. Eləcə də müxtəlif bayramlarda, əlamətdar günlərdə dövlət və hökumət rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları məzmunlu məktublar, ölkə başçısının ən nüfuzlu beynəlxalq tədbirlərə dəvət edilməsi, hər bir çıxışının, niqtinin maraqla izlənilməsi də Prezident İlham Əliyevin Ulu Öndərin ən layiqli siyasi davamçısı kimi dünyada yüksək siyasi nüfuzundan xəbər verir.

### *Heydər Əliyev ideyalarının və İlham Əliyevin qətiyyətinin ən böyük təntənəsi*

Prezident İlham Əliyev qətiyyətli və müdrik siyasi kursu ilə qədirbilən xalqımızın qürur mənbəyinə çevrilmiş, bugünkü nəsli gələcək nəsillər qarşısında alnıaçıq edən şərəf tarixini yazmış və yaratmış, Azərbaycanı Ulu Öndərin arzuladığı ucalığa yüksəltmiş qəhrəman kimi əbədi liderlik əldə etmişdir. Böyük Heydər Əliyevin ən böyük arzusu isə torpaqlarımızın erməni işğalından azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı idi. Böyük liderimiz torpaqlarımızın işğaldan azad ediləcəyinə ürəkdən inanırdı və bu inamını hələ 1998-ci ildə Novruz bayramı münasibətilə Mərdəkandakı "Abşeron" sanatoriyasında məcburi köçkünlərlə görüşündə belə ifadə etmişdi: ***"Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram".***

Ulu Öndərin ideyalarının həyata vəsiqə almasını layiqincə yerinə yetirən Prezident İlham Əliyevin fəaliyyətində həmişə torpaqlarımızın işğaldan azad olunması prioritet istiqamət təşkil etmişdir. Hələ respublikamıza rəhbərliyinin ilk günündə, 2003-cü ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev Azərbaycanın heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacağını və doğma ərazilərini nəyin bahasına olursa-olsun, azad edəcəyini bəyan etmişdir: ***"Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".***

Prezident İlham Əliyev atasının qurucusu olduğu müstəqil Azərbaycanı inkişaf etdirməklə, tarixinin ən qüdrətli dövlətinə çevirməklə, eyni zamanda işğal altında olan torpaqlarımızın azad edilməsi üçün illərdir, etibarlı təməllər yaratmağı hədəfləmişdir. Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hər zaman qətiyyətlə bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə torpaqlarımız güc yolu ilə azad olunacaqdır. Bunun üçün Prezidentin rəhbərliyi ilə davamlı şəkildə hərbi islahatlar həyata keçirilmiş, Silahlı Qüvvələrimizin döyüş imkanları ən müasir standartlar səviyyəsinə çatdırılmışdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük təmkinlə, müdrikcəsinə və uzaqgörənliklə torpaqlarımızın işğaldan azad olunmasının tarixini ildən-ilə, aydan-aya, gündən-günə yaxınlaşdırdı.

Ümumiyyətlə, dünyadakı ermənipərəst mövqeyə, mənfur Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi hər zaman müstəqil Azərbaycan dövlətinin, onun qurucusunun və müzəffər liderinin prioritet məqsədlərindən biri kimi özünü açıq şəkildə göstərmişdir. Müdrik xalqımız da əmin idi ki, torpaqlarımız gec-tez mütləq işğaldan azad olunacaqdır. Çünki Ümummilli Liderimiz böyük Heydər Əliyevin müəllifi olduğu, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi dönməz siyasi kurs başqa cür düşünməyə əsas vermirdi və Azərbaycanı hər an addım-addım torpaqlarımızın azadlığına aparırdı.

2020-ci ilin Vətən müharibəsində şəhidlərimizin, qazilərimizin al qanı, canı bahasına torpaqlarımızın işğaldan azad edilməsi böyük Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyev qətiyyətinin, komandanlığının ən böyük təntənəsinə çevrildi. Sözdən və danışıqlardan anlamayan işğalçı Ermənistan döyüş meydanında əzilərək, cəzalandırılaraq torpaqlarımızdan it kimi qovuldu. 44 günlük savaşda qazanılan tarixi Zəfər səhifələri qanla yazılmış müstəqillik və dövlətçilik tariximizi nəinki şərəfləndirdi, xalqımızın iftixar, qürur mənbəyinə çevrildi.

2023-cü ildə isə Prezident İlham Əliyevin qətiyyətli və milli maraqları prinsipiallıqla ehtiva edən siyasi kursunun nəticəsi olaraq Qarabağda erməni separatizminə son qoyuldu. Bununla da Ermənistanın və dünya erməniliyinin Azərbaycan ərazilərində ikinci erməni dövləti yaratmaq kimi riyakar planı iflasa uğradıldı. Ərazilərimizdə 200 ilə yaxın davam edən erməni separatçılığını cəmi 23 saata darmadağın edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla da təkrarsız ənənələrə və qiymətli dəyərlərə sahib Azərbaycan dövləti və xalqı qarşısında daha bir missiyasını ləyaqətlə, layiqincə yerinə yetirdi. Bununla həm də bütün ərazilərimiz üzərində milli suverenliyimiz təmin olundu. Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamında bu barədə deyilir: ***"2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur".***

Bu möhtəşəm qələbələrin və uğurların davamı kimi Qazax rayonunun 1990-cı illərinin əvvəllərində işğal edilmiş 4 kəndinin də də işğaldan azad olunması Prezident İlham Əliyevin xalqımıza bəxş etdiyi növbəti siyasi-diplomatik zəfər kimi tarixə yazıldı.

### *Mehriban Əliyevanın təşəbbüsləri ilə reallaşan möhtəşəm layihələr*

Artıq 5 ildir ki, Heydər Əliyev ideyalarının daha bir təntənəsi Qarabağda və Şərqi Zəngəzurda yaşanır. İşğaldan azad edilmiş bu torpaqlar indi yenidən qurulur, onlara yeni həyat verilir. Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə indiyədək görülmüş işlərin miqyası böyük və qürurvericidir. Bu gün müstəqil Azərbaycan dövləti özünün gücü, maliyyəsi ilə 4 Lüksemburq və ya 1 Livan dövləti qədər bir ərazini yenidən tikir, qurur. 5-ci ildir ki, ümumi sahəsi 10 min kvadratkilometrdən çox olan bir ərazidə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında müasir şəhərlər və kəndlər salınır, "yaşıl texnologiyalar"ın tətbiqi ilə "yaşıl enerji zonası" yaradılır, müasir standartlara cavab verən avtomobil yolları çəkilir, hava limanları inşa edilir. Prezident İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın azad edilmiş ərazilərə hər gəlişi yeni təməllərin atılması və ya açılışlarla əlamətdar tarixə çevrilir. Artıq Laçın, Füzuli, Şuşa, Xocalı və Cəbrayıl şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux, Sus, Xocalı rayonunun Ballıca, Ağdərə rayonunun Həsənriz və Suqovuşan, Ağdam rayonunun Sarıcalı kəndlərinə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub və bu proses, demək olar ki, hər gün davam edir. İndiyədək 13 min nəfərdən artıq keçmiş məcburi köçkün doğma yurd-yuvasına geri dönüb.

Vətən müharibəsindəki zəfərin quruculuq meydanındakı davamı olan Böyük Qayıdış həm də Heydər Əliyevin arzularının, ideyalarının çiçək açmasıdır. Böyük Qayıdış, Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesi dövlətimizin əsas məqsədlərdən biri kimi həm də Ulu Öndərin ideyalarının davamlı şəkildə həyata keçirilməsinə dəstək verir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən görülən işlər də xüsusi alqışa layiqdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağda, Zəngəzurda həyata keçirilən bu işlər azad edilmiş ərazilərin bərpası prosesinə böyük təkan və yaddaqalan töhfələr verir.

Bu günlərdə fəaliyyətə başlamasının 21 ili tamam olan Heydər Əliyev Fondunun bərpa və quruculuq layihələrinə azad edilmiş ərazilərimizdə, o cümlədən Qarabağın tacı olan əziz Şuşamızda tez-tez rast gəlmək mümkündür. Fondun reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca geniş və çoxşaxəlidir. Ötən 5 ilə yaxın müddətdə möhtəşəm layihələrin bir qismi, demək olar ki, tam icra olunmuşdur. Belə ki, Şuşada dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa, Saatlı, Mamayı məscidlərinin, Mehmandarovların malikanə kompleksi ərazisindəki məscidin, Mehmandarovların malikanəsinin, "Şirin su" hamamın, Şuşada Yaradıcılıq Mərkəzinin, Zəngilan məscidinin, Ağdam Cümə məscidinin bərpası məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir.

Beləliklə, Prezident İlham Əliyevin fədakar silahdaşı olan Mehriban xanım Əliyevanın Vətənə, xalqa xidmətinin daha bir nümunəsi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləridir. Başqa cür desək, birinci xanım Mehriban Əliyeva həm də bu gün Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuğun baş memarlarından, müəlliflərindən biridir. Heydər Əliyev Fondu isə işğaldan azad edilmiş ərazilərimizin bərpasına hələ çox töhfələr verəcək və bütün bunlar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Vətən sevgisinin təcəssümü kimi Azərbaycanın, Qarabağın və Şərqi Zəngəzurun bərpası tarixinə qızıl hərflərlə yazılacaq.

Ulu Öndər Heydər Əliyevin dəqiqliklə hədəflədiyi, müəyyənləşdirərək həyata keçirdiyi, möhtərəm Prezidentimiz İlham Əliyevin bu gün də layiqincə davam və inkişaf etdirdiyi uğurlu siyasət məhz müstəqil Azərbaycanın inkişafını, qüdrətli dövlətə çevrilməsini, torpaqlarımızın işğaldan azad olunmasını və bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpasını təmin etdi desək, tamamilə doğru olar. Bütün bunlar bir daha onu təsdiq edir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ölməz, əbədiyaşar ideyaları və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs bu gün də, sabah da, on illər sonra da Azərbaycanın yüksəlişinin və etibarlı gələcəyinin alternativsiz təminatçısıdır!

Milli dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, iftixar, qürur mənbəyimiz olan Ulu Öndər Heydər Əliyevi anadan olmasının 102-ci ildönümündə böyük minnətdarlıqla yad edir, əziz xatirəsi önündə baş əyirik.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin rəhbəri***

## Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Naxçıvana səfər edib





Mayın 5-də Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Səməd Başirlinin başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Səməd Başirli Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi, həmçinin "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihələrinin müzakirəsinin daxil edildiyini deyib.

Əjdər Əliyev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının fəaliyyətinin və işinin təşkili məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin təcrübəsi əsasında komissiyanın Əsasnaməsi hazırlanıb.

Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov qərar layihəsi haqqında məlumat verdikdən sonra müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim olunub.

Gündəlikdə duran digər məsələlərin müzakirəsi zamanı komitə sədri bildirib ki, təqdim olunmuş qanun layihələri həm birinci, həm də ikinci oxunuşda deputatlar tərəfindən dəstəklənib, hər hansı əlavə təklif və rəy bildirilməyib.

Sonda qanun layihələri ilə bağlı qərar qəbul edilib, qanun layihələri üçüncü oxunuşda baxılmaq məqsədilə yeddinci çağırış Ali Məclisin növbəti iclasının müzakirəsinə təqdim edilib.

## K.Y.Hüseynəliyevin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsinə təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Kazım Yaşar oğlu Hüseynəliyev Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 6 may 2025-ci il*

## Ali Məclisin növbəti plenar iclası keçirilib



Mayın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyində duran məsələlərin "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələri (üçüncü oxunuş), "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi və Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin vəzifəyə təsdiq edilməsinin müzakirəsi olduğunu bildirib.





Gündəlik təsdiq olunduqdan sonra "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələri ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, qanun layihələri 25 aprel 2025-ci il tarixdə ikinci oxunuşda müzakirə edilib, Ali Məclisin Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanıb.

Qanun layihələri barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verdikdən sonra səsə qoyularaq qəbul edilib.

Gündəliyin üçüncü məsələsi – "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi barədə Bəxtiyar Məmmədov bildirib ki, Ali Məclisin İntizam komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi və işinin təşkili məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin təcrübəsi əsasında komissiyanın Əsasnaməsinin layihəsi hazırlanıb və Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunub.

Komitə sədri layihə barədə məlumat verib, komitənin rəyi diqqətə çatdırıldıqdan sonra qərar səsə qoyularaq qəbul edilib.

İclasın gündəliyinə verilən sonuncu məsələ – Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinin vəzifəyə təsdiq edilməsi ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsinə namizəd barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2025-ci il 5 may tarixli təqdimatı Ali Məclisə daxil olub.

Təqdimat oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra "Kazım Yaşar oğlu Hüseynəliyevin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsinə təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Bəxtiyar Məmmədov yeni vəzifəyə təyin olunması münasibətilə Kazım Hüseynəliyevi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Ali Məclisin iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Cənab Prezident tərəfindən mükafata layiq görülməyim mənim üçün böyük qürurdur




Prezident İlham Əliyevin imzaladığı Sərəncamla bir sıra incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatı verilib. Bu yüksək mükafata layiq görülənlər sırasında Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru, rejissor Mir Qabil Əkbərovun da adı yer alıb.

Bu əlamətdar hadisə incəsənət xadimləri tərəfindən böyük sevinc və fəxarət hissi ilə qarşılanıb. Sevincini "Şərq qapısı" qəzeti ilə bölüşən gənc rejissor bildirib: "Aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təqdim edilməsi haqqında imzalanan Sərəncam biz – sənət yolunu sevgi ilə seçmiş gəncləri dərin sevinc və qürur hissi ilə sevindirdi. Ən böyük sevincimiz isə odur ki, mükafata layiq görülənlər sırasında doğma diyarımız Naxçıvandan olan incəsənət nümayəndələri də yer alıb. Gənc bir səhnə adamı kimi bu diqqət və qayğını, milli-mədəni kimliyimizə verilən yüksək dəyər kimi qiymətləndirir, cənab Prezidentə öz minnətdarlığımı bildirirəm. Bu təltif bir sənətkarın əməyinə verilən qiymətlə yanaşı, dövlətimizin incəsənətə olan münasibətinin parlaq təzahürüdür. Bu cür mükafatlar biz gənclər üçün motivasiya, səhnəyə və sənətə olan bağlılığımızın daha da dərinləşməsinə səbəbdir.

Naxçıvan teatrı qədim irsin, milli dəyərlərin və peşəkar sənətin daşıyıcısıdır. Biz bu mirası gələcək nəsillərə ötürmək və daim inkişaf etdirmək üçün əlimizdən gələni etməyə hazırıq. Mükafata layiq görülən ustadlarımız bizim yolumuzda örnəkdir, onların uğuru bizi daha çox çalışmağa sövq edir".

✍ **Əhməd ƏHMƏDOV**














# Bu yerdə tarix dil açır, mübarizə danışır

*Naxçıvan şəhərində ilıq bir yaz günü, çiskinli bir havada dahi rəhbərin abidəsi önündə dayanmışam. Hər dəfə bu meydanda dayananda soyuqdan əl-ayağın buz kəsdiyi o günlərdə bu meydanda yanan tonqallar və tonqalın başına toplaşan insanlar gəlir ağlıma. O tonqallar bayram tonqalı deyildi. Oğuz elində müharibə başlayıb işarəsi, "Haraya gəlin, igidlər", – demək idi. Səsimizə səs verən oğullar Vətənə can qurban etmək üçün gecə-gündüz toplanardı həmin tonqalların ətrafına. Səsimizə səs verən eloğlunun Vətənə, yurdu Naxçıvana döndüyü isti bir yay günündə bu meydanda iynə atsan, yerə düşməzdi. Bütün Naxçıvan Onun ətrafına toplaşmışdı bu yerdə.*

Həmin günlərlə bizi 30 illik zaman kəsiyi ayırır. Bu gün bu yerə ayaq basan hər kəs o günləri minnətdarlıqla anır. Elə bu düşüncələrlə dahi rəhbərin adını daşıyan muzeyə daxil oluram. İlk dil açıb danışan o bayraq olur. Həmin bayraq ay-ulduzlu, üçrəngli şanlı bayraq. "Bu mənəm", – deyir Heydər Əliyevin əllərində göylərə ucalan bayraq. Mən illərlə həsrət çəkdim ki, görəsən nə vaxt gizli qaldığım sandıqdan çıxarılıb azad Vətənin göylərində dalğalanacağam... Mən göylərdən enəndə o hələ dünyaya gəlməsə də, əmin idim, Tanrı məni bir daha göylərə qaldıracaq oğulu göndərəcək. Həmin gün gələndə sevincimdən ay-ulduzum şölə saçdı. O məni əlinə alanda "Gün gələcək bütöv Azərbaycanın başı üstə məğrurluqla dalğalanacaqsan", – demişdi. Bu gün daha qürurluyam, çünki Heydər Əliyevin arzusundakı kimi Şuşada dalğalanıram... Xankəndidə ucalıram.

Sonra çıraq dəyir gözümə. Danış, sən də danış, qaranlıq gecələrdə sabaha kimi işığında sübhü açan dahidən, deyirəm…

Dilə gəlir şahid çıraq:

"Neft də bol olmazdı ki, yaxşı yanım, işıq salım qaranlıq gecələrə. Eləcə işıldayardım az-az. Onun ürəyindəki Vətən eşqinin işığı güc verərdi mənə də. Bəzən gecələr sabahı birlikdə açardıq. Sübhə kimi hey yazıb-pozardı, gözünü bir an belə qırpmazdı. Bax beləcə, 3 ili birlikdə keçirdik. Mənim işığımda verdiyi qərarlar nur oldu xalqın yoluna".

Sonra həmin illərdə dahi rəhbərin masası üstündə olan, heç susmayan telefon dəyir gözümə.

Ulu Öndərin əllərinin izi, təmkinli səsi həkk olub bu telefona. Həmin telefon aparatıdır ki, dünyaya səsimizi bununla duyurub dahi rəhbər. Bu cansız əşyalar, bir də bütün xalq şahid olub Vətən oğlunun bu dövlət üçün etdiklərinə...

Yavaş-yavaş göz gəzdirirəm Vətən oğlunun geyindiyi paltarlara… Bir dəst sadə kostyumu, papağı, ayaqqabıları dəyir gözümə. Dünyaya dərs keçən bu dahinin geyimi o qədər sadə olub ki, özü kimi…

Ondan danışan kitablar, imzasını daşıyan sərəncamlar, Vətənin bu kiçik məmləkətinə qədəm qoyanda başına toplaşan insan seli arasında çəkilən fotolar dəyir gözümə.

Dili olmasa da, danışır bu fotolar. Deyir ki, bu qədər insanı Onun başına toplayan bir səbəb var idi: Vətən sevgisi… Heydər Əliyevin ürəyində o qədər xalq, torpaq sevgisi var idi ki, bu sevginin işığına toplaşıb bu insan seli. Ona inam var bu fotolarda. Xilaskara olan inam var. Güvən var.

Bu kitablar isə Ondan danışan salnamələrdir. Amma nə qədər çox olsalar da, Vətən oğlunun xalq üçün etdikləri kitablara sığmaz ki. Ömrünü Vətənə həsr edən bir insan üçün deyilən, yazılan sözlər heç vaxt bitməz ki.

Bəli, bu muzey, sadəcə, bir dahi haqqında məlumat vermir bizə. Bu muzey xalqın sevgisinin əyani sübutudur. Bu ocaq Vətən oğlunun bu xalq üçün etdiklərinin toplandığı, şəxsi əşyalarının nümayiş etdirildiyi sadə bir yer deyil, tarixdir, mübarizədir və qələbədir...





**"Şərq qapısı"**



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin may ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 14.05.2025, saat $10^{30}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılzadə Seymur Elbəyi oğlu, 070-335-67-05 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 23.05.2025, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 24.05.2025, saat $11^{00}$, Şərur rayonu, Kərimbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 01.05.2025, saat $15^{00}$, Şərur rayonu, Qarxun kənd tam orta məktəbi<br>22.05.2025, saat $17^{00}$, Şərur rayonu, Yengicə kənd sakinləri, səyyar qəbul | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 22.05.2025, saat $11^{30}$, Şərur rayonu, Muğanlı kəndi, səyyar qəbul | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 06.05.2025, saat $11^{00}$, Şərur rayonu, Çəmənli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 14.05.2025, saat $10^{15}$, Şərur rayonu, Xanlıqlar kənd tam orta məktəbi<br>14.05.2025, saat $12^{00}$, Şərur rayonu, Siyaqut Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 23.05.2025, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 13.05.2025, saat $15^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 12.05.2025, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 20.05.2025, saat $15^{00}$, Şərur rayonu, Şahbulaq Kənd Mərkəzi | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 14.05.2025, saat $15^{00}$, Şərur rayonu, Tumaslı, Vayxır və Diyadin kənd sakinləri, Tumaslı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 23.05.2025, saat $15^{00}$, Şərur rayonu, Tənənəm Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 22.05.2025, saat $11^{30}$, Kəngərli rayonu, Qarabağlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qəmbərov Ramal Fərhad oğlu, 060-285-00-15 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 03.05.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 12.05.2025, saat $11^{00}$, Kəngərli rayonu, Təzəkənd və Xıncab kənd sakinləri, səyyar qəbul | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 15.05.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 07.05.2025, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 27.05.2025, saat $10^{00}$, Babək şəhəri, 2 nömrəli tam orta məktəbin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 16.05.2025, saat $11^{00}$, Babək rayonu, Yarımca Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 12.05.2025, saat $15^{00}$, Babək rayonu, Kərimbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 21.05.2025, saat $11^{00}$, Babək rayonu, Xəlilli Kənd Mərkəzinin inzibatı binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 23.05.2025, saat $14^{00}$, Babək rayonu, Cəhri qəsəbə uşaq musiqi məktəbinin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 26.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 30.05.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Saha İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 19.05.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, Babək məhəlləsi və Əliqulu Qəmküsar küçəsi, səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 16.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəbin binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 16.05.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 21.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 15.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, "İstiqlal" küçəsi 121, 123, 125, 127 və 129 nömrəli yaşayış binalarının sakinləri, səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 20.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 31.05.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 35 və 36-cı məhəllə sakinləri, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 16.05.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Səməd Vurğun küçəsi, 57, 58, 60 və 61-ci məhəllə sakinləri, səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 27.05.2025, saat $11^{00}$, Şahbuz rayonu, Mahmudoba Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 15.05.2025, saat $11^{00}$, Şahbuz rayonu, Yuxarı Qışlaq kənd sakinləri, səyyar qəbul | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 30.05.2025, saat $16^{00}$, Şahbuz rayonu, Daylaqlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 22.05.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 16.05.2025, saat $11^{00}$, Culfa rayonu, Yaycı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 29.05.2025, saat $11^{00}$, Culfa rayonu, Əbrəqunus Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 16.05.2025, saat $13^{00}$, Culfa rayonu, Göydərə kənd tam orta məktəbinin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 15.05.2025, 29.05.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 08.05.2025, 22.05.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>14.05.2025, saat $15^{00}$, Ordubad rayonu, Şəhriyar Qəsəbə Mərkəzi | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 29.05.2025, saat $16^{00}$, Ordubad rayonu, Xanağa Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 19.05.2025, saat $10^{00}$, Ordubad rayonu, Üstüpü kənd tam orta məktəbinin kollektivi, saat $11^{00}$, Üstüpü və Məzrə kənd sakinləri, Üstüpü Kənd Mərkəzi | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 17.05.2025, saat $12^{00}$, Ordubad rayonu, Nəsirvaz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

## Şəhid Zülfü Rzayevin xatirəsinə həsr olunmuş tədbir

İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Zülfü Rzayevin əziz xatirəsinə həsr edilmiş tədbir keçirilib.



Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Sonra şəhidimizin həyat yolundan bəhs edən videoçarx nümayiş olunub.

Şəhid Zülfü Rzayevin ailə üzvləri Mehparə Rzayeva və Zülfəli Rzayev şəhid haqqında xatirələrini bölüşüblər.

Tədbirdə çıxış edən Heydər Əliyev adına Hərbi Liseyin rəis əvəzi, polkovnik Rəşad Əsgərov bildirib ki, ölkə başçımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi.

Ali Məclisin deputatı Gülşad Rüstəmova Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq nümunələrindən, arxa cəbhədə xalqımızın "dəmir yumruq" kimi möhkəm birliyindən, tarixə qızıl hərflərlə həkk olunmuş Zəfərdən, şəhidliyin ali məqamlardan biri olmasından söz açıb.

Digər şəhid valideynlərinin də çıxışları dinlənilib.

Daha sonra şəhid baş leytenant Zülfü Rzayevin həyat yoldaşı Gülnar Rzayeva çıxış edib. Bildirib ki, onun Vətən sevgisini hər hansı cümlə ilə ifadə etmək qeyri-mümkündür. Ancaq deyə bilərəm ki, o Vətənini öz canını, cavanlığını, həyatını, gələcəyini, hər şeyini ona qurban verəcək qədər sevirmiş. Zülfünün Vətən sevgisi isə təktərəfli deyilmiş, Vətəni də Zülfünü sevirmiş. Qoynuna ala biləcək, bağrına basacaq, tarixə yazacaq qədər sevirmiş.

Qeyd olunub ki, Şahbuz rayonunun Külüs kəndində anadan olan şəhid Zülfü Rzayev də



2016-cı ilin Aprel döyüşlərinə adını qızıl hərflərlə yazdırıb, erməni polkovnikini öldürərək öz döyüş yoldaşını xilas edib. Göstərdiyi şücaətə görə Prezident İlham Əliyev tərəfindən "İgidliyə görə" medalı ilə təltif olunub.

# Dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili



*Müasir dövrün tələbləri və texnologiyanın sürətli inkişafı dövlət idarəetməsində informasiya təminatının və media ilə işin təşkilinin əhəmiyyətini artırıb. Dövlətin şəffaf və səmərəli fəaliyyət göstərməsi, vətəndaşların dövlət orqanları ilə əlaqələrinin optimallaşdırılması, cəmiyyətin müxtəlif sahələrində dövlətin fəaliyyəti barədə məlumatlılığın təmin edilməsi üçün düzgün, effektiv informasiya siyasətinin həyata keçirilməsi vacibdir. Bu, eyni zamanda dövlətin ictimaiyyətlə münasibətlərinin inkişafını və media ilə əlaqələrinin səmərəli təşkilini tələb edir.*

**Rəmzi İBRAHİMOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri***

Azərbaycan Respublikasında da bu istiqamətdə mühüm islahatlar həyata keçirilmiş və dövlət idarəetməsində informasiya təminatı, media ilə işin təşkili strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili yalnız hüquqi və institusional çərçivələrdə deyil, həm də informasiya məkanının bütün iştirakçıları ilə düzgün əlaqələrin qurulmasını tələb edir. Bu sahədə Azərbaycan Respublikası müxtəlif qanunvericilik və normativ aktlar qəbul edərək informasiya təminatını təkmilləşdirmişdir. Müvafiq qanunlar, xüsusilə "İnformasiya əldə etmək haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunları dövlətin informasiya siyasətinin əsas çərçivəsini müəyyən edir.

İnformasiya əldə etmək hüququ və media azadlığı Azərbaycanın Konstitusiyasında qorunan əsas hüquqlar sırasındadır. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi vətəndaşların informasiya əldə etmək hüququnu təmin edir və dövlət orqanlarının fəaliyyətinə dair məlumatların açıq olmasını şərtləndirir. Bu hüququn təmini və inkişafı çərçivəsində dövlət qurumlarının informasiya təminatının keyfiyyətini artırmaq, media ilə əlaqələrini gücləndirmək üçün müxtəlif təkmilləşdirmə mexanizmləri tətbiq edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları əsasında Elektron Hökumət platformalarının inkişafı da dövlət idarəetməsinin informasiya təminatını optimallaşdırmışdır.

Azərbaycan hökuməti informasiya təminatının gücləndirilməsi və ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra islahatlar həyata keçirmişdir. Bu islahatlar arasında açıq hökumət təşəbbüsləri, elektron hökumət layihələri və media sahəsindəki yeni təşəbbüslər xüsusilə diqqət çəkir.

"ASAN xidmət" və "e-Gov" kimi layihələr elektron hökumət xidmətlərinin inkişafını, vətəndaşların dövlət xidmətlərinə daha rahat çıxışını təmin edir. Bu platformalar dövlət orqanlarının fəaliyyətini vətəndaşlara daha açıq göstərir və informasiya əldəetmə prosesini sürətləndirir.

"ASAN xidmət" mərkəzləri dövlət xidmətlərinin təqdimatında böyük irəliləyişə səbəb olmuşdur. Bu mərkəzlər vətəndaşlara yüksəkkeyfiyyətli və vaxtında dövlət xidmətləri göstərir. Eyni zamanda "e-Gov" sistemi də dövlət-vətəndaş əlaqələrini yeni bir səviyyəyə çatdırıb. Burada vətəndaşlar bir çox xidmətlərə onlayn şəkildə müraciət edə bilirlər. Bununla yanaşı, "Açıq Hökumət Məlumatları" portalı da Azərbaycan Respublikası dövlət qurumlarının şəffaflığını artırmaq məqsədini daşıyır.

Dövlətin fəaliyyətini cəmiyyətə çatdırmaq və ictimai rəyi formalaşdırmaq baxımından media ilə qarşılıqlı əlaqələrin düzgün qurulması vacibdir. Bu məqsədlə Azərbaycan Respublikasının dövlət qurumları mətbuat xidmətlərini gücləndirərək media ilə əlaqələrini daha da təkmilləşdirmişdir.

Azərbaycan Respublikasında Medianın İnkişafı Agentliyinin yaradılması media sahəsində islahatların aparılmasında və peşəkar jurnalistlərin hazırlanmasında mühüm addım olmuşdur. Agentlik media sahəsinin tənzimlənməsi, jurnalistlərin hüquqlarının qorunması və peşəkar inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir.

Dövlət idarəetməsində media ilə işin düzgün təşkili ictimaiyyətin dövlət siyasətinə olan inamını artırır, informasiya təhlükəsizliyini təmin edir və şəffaflığı gücləndirir. Bu sahədə media ilə əməkdaşlığın inkişafı və kommunikasiya strategiyalarının təkmilləşdirilməsi müasir dövlət idarəetməsinin ayrılmaz hissəsinə çevrilib. Ölkəmizdə bu istiqamətdə atılan addımlar – dövlət qurumlarında peşəkar mətbuat xidmətlərinin formalaşdırılması, sosial media vasitəsilə məlumatlandırmanın gücləndirilməsi və şəffaflığın artırılması dövlət-media münasibətlərinin sağlam əsaslar üzərində qurulmasına xidmət edir. Bu baxımdan dövlət idarəetməsində media ilə əlaqələrin gücləndirilməsi üçün davamlı islahatlar aparılır, yeni kommunikasiya texnologiyalarından istifadə genişləndirilir və ictimaiyyətlə əlaqələrdə şəffaflıq əsas prinsip kimi qorunur.

Sosial media və rəqəmsal platformalar dövlət idarəçiliyi üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Son illərdə dövlət qurumlarının "X", "Facebook", "Instagram" və sair bu kimi sosial media platformalarında fəaliyyəti ictimai ünsiyyətdə yeni dövr başladıb. Bu platformalar vətəndaşların dövlətin fəaliyyəti haqqında operativ, dəqiq məlumatlarla təmin edilməsi, ictimai rəy və təkliflərin qəbulu üçün səmərəli vasitəyə çevrilib.

Müasir dövrdə məlumatların doğruluğu və etibarlılığı, eləcə də internet üzərindən yayılan saxta xəbərlər və dezinformasiyanın qarşısının alınması məsələləri dövlətin informasiya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Dezinformasiyaya qarşı mübarizə məqsədilə müxtəlif təhlil və araşdırmalar aparılır, jurnalistlər və ictimaiyyət məlumatlandırılır. Kibertəhlükəsizlik sahəsində atılan addımlar və müxtəlif kibermüdafiə tədbirləri dövlətin informasiya təhlükəsizliyini qorumağa yönəlmişdir. Elə bu tədbirlərdən biri də dövlət başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nın qəbul edilməsidir. Bu strategiya yalnız texnoloji yenilikləri dəstəkləməklə kifayətlənmir, eyni zamanda dövlət idarəçiliyi, iqtisadiyyat, elm və təhlükəsizlik sahələrində süni intellektin effektiv istifadəsini təmin etməyə yönəlib. Süni intellektin inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramı bu sahənin planlı şəkildə inkişaf etdirilməsinə və gələcək çağırışlara uyğun olaraq idarə edilməsinə imkan yaradır.

Süni intellektin inkişafı üzrə qəbul edilən Dövlət Proqramı Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın və dövlət idarəçiliyinin modernləşməsində mühüm rol oynayacaq. Proqramın icrası kibertəhlükəsizliyi gücləndirəcək, insan kapitalını inkişaf etdirəcək və ölkədə innovasiyaların sürətli inkişafına şərait yaradacaq. Dövlət Proqramının strateji məqsədləri süni intellektin təhlükəsizliyi, etik və effektiv tətbiqini təmin etməklə Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyini möhkəmləndirməkdir. Bu istiqamətdə atılan addımlar süni intellektin yalnız innovasiya aləti kimi deyil, həm də dövlət təhlükəsizliyi, informasiya idarəçiliyi və ictimai rifahın artırılması üçün mühüm vasitə olduğunu göstərir. Beləliklə, qəbul olunan Dövlət Proqramı süni intellektin məsuliyyətli və dayanıqlı inkişafını təmin edərək Azərbaycanın rəqəmsal gələcəyini formalaşdıran əsas sütunlardan birinə çevrilir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da hər bir sivil cəmiyyətin inkişaf göstəricisi hesab olunan söz və məlumat azadlığının təmin olunması, medianın fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Bu gün muxtar respublikada yaradılan yardıcılıq mühiti jurnalistlərin istənilən mövzuda sərbəst material hazırlamasına, araşdırma aparmalarına imkan verir. Bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş Naxçıvan mediasının da əhatə edib. Mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli dövlət qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub.

Naxçıvan televiziyasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin internet saytlarının, media hesablarının operativ fəaliyyətinin təmin olunması, Naxçıvan televiziyasının və radiosunun internet üzərindən yayımlanması, muxtar respublikada ölkə telekanallarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi, mərkəzi media qurumlarının muxtar respublikadakı nümayəndələri ilə sıx əlaqələrin yaradılması, bununla da Naxçıvan mediasının vahid komanda şəklində hərəkət etməsi, işin daha da optimallaşdırılması, yeni texnologiyaların iqtisadiyyatın və həyatın bütün sahələrində tətbiqi, sürətli internetə çıxış imkanlarının yaradılması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir.

Dövlət orqanlarının fəaliyyəti ilə bağlı mətbuata açıq informasiyalar – ümumiləşdirilmiş statistik məlumatlar, aylıq və rüblük hesabatlar, əhaliyə göstərilən ictimai xidmətlər haqqında məlumatlar, açıqlanması qanunvericiliklə müəyyənləşdirilən digər informasiyalar internet saytlarında ictimailəşdirilərək geniş oxucu kütləsinə çatdırılır. Dövlət qurumlarının internet saytları mütəmadi yenilənir və informasiya yükü artırılır. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı haqqında qurumların internet saytlarında məlumatlar, fotoşəkillər və videolar yerləşdirilir, təbliğat işi aparılır.

# Daha bir ailənin sevinci



Bu gün ölkəmizdə sosialyönümlü layihələrin həyata keçirilməsi diqqət mərkəzindədir. Sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər bu siyasətin ana xəttini təşkil edir. Ötən günlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva ailə üzvləri ilə birlikdə Naxçıvan Muxtar Respublikasına etdikləri səfər çərçivəsində Naxçıvan şəhərində sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən Naxçıvan Uşaq Bərpa Mərkəzinə də baş çəkiblər. Onlar burada mərkəzin müxtəlif bölmələri ilə tanış olaraq tibbi reabilitasiya və uşaqlara göstərilən xidmətlərlə maraqlanıblar. Həmçinin səfər zamanı fiziki imkanları məhdud olan Hüseyn və Həsən Pənahov qardaşları ilə tanışlıq olub və onlara fond tərəfindən xüsusi dəstək göstərilib. Biz də Pənahovlar ailəsi ilə görüşdük. Hüseynin və Həsənin anası Nargilə xanım fondun göstərdiyi diqqət və yardıma görə dərin minnətdarlığını bildirdi:

"Leyla xanım və Arzu xanımın şəxsən bizimlə görüşməsi, övladlarımın vəziyyəti ilə maraqlanması bizə böyük mənəvi güc verdi, bizi çox sevindirdi. Hüseynin 15, Həsənin isə 12 yaşı var. Hər bir valideynin arzusu övladını sağlam, təhsilli və uğurlu bir fərd kimi yetişdirməkdir. Onlar doğuşdan serebral iflic xəstəliyindən əziyyət çəkir. Hərəkət məhdudiyyətləri səbəbindən gündəlik həyatları çətinliklərlə doludur. Lakin bu yardım övladlarım üçün bir ümiddir. Biz artıq tək olmadığımızı hiss edirik. Fondun bu diqqəti bizə yeni güc verdi".

Nargilə xanım göstərilən belə qayğını heç vaxt unutmayacağını da dilə gətirdi.

Heydər Əliyev Fondunun sosial layihələri çərçivəsində bu kimi humanitar təşəbbüslər mütəmadi olaraq həyata keçirilir və ölkənin müxtəlif bölgələrində aztəminatlı ailələrin rifah halının yüksəldilməsinə xidmət edir. Nəticə olaraq, sosial qayğıdan bəhrələnən ailələr cəmiyyətin dəstəyini hiss etdikcə daha güclü, daha dayanıqlı olur. Onların rifahı həm sosial ədalətin təcəssümüdür, həm də gələcək nəslin sağlam inkişafının zəmanətidir.

# SAT üzrə ölkə birinciliyi, TOEFL və buraxılış imtahanı üzrə yüksək nəticə: *naxçıvanlı şagird beynəlxalq arenada*



Naxçıvan şəhərində fəaliyyət göstərən 17 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Nərmin Əliyeva SAT (ABŞ və digər xarici universitetlərə qəbul üçün keçirilən beynəlxalq imtahan) imtahanı üzrə 1600 ballıq sistemdən 1580 bal nəticə göstərərək ölkə birinciliyi və dünya üzrə ən yüksək nəticə göstərən 1 faizlik tələbə siyahısına daxil olub. İngilis dili üzrə dil bacarıq imtahanı olan TOEFL imtahanında isə 120 ballıq sistem üzərindən 111 bal toplayaraq C1 səviyyəsini təsdiqləyən Nərmin bu nəticəsi ilə indiyə qədər Naxçıvan üzrə ən yüksək nəticə göstərən şagird olub. O bu uğurlarına gündəlik planlı çalışma, davamlı zəhmət və illərdir, apardığı sistemli hazırlıq sayəsində nail olduğunu bildirir.

Dərsləri ilə yanaşı, maraqlarına da vaxt ayırdığını diqqətə çatdıran Nərmin ingilis dilini altı yaşından öyrənməyə başladığını, üçüncü sinifdən etibarən valideynləri tərəfindən yönləndirilərək danışıq kurslarına qatıldığını vurğulayır. Dil biliklərini inkişaf etdirmək üçün gündəlik həyatında bu dildən istifadə edib, kitablar oxuyub, filmlər izləyib.

Nərminin uğurları bunlarla məhdudlaşmır. O, riyaziyyat sahəsində də uğurlu nəticələr əldə edərək 10-cu sinifdə SASMO olimpiadasında qızıl, Kopernik olimpiadasında isə gümüş medal, 8-ci sinifdə ARTİ-nin keçirdiyi fənn olimpiadasında kimya fənni üzrə bürünc medal qazanıb. Həmçinin Kenquru və TEMO kimi beynəlxalq riyaziyyat olimpiadalarında sertifikatlarla təltif olunub.

Nəticələri ilə bağlı öz təəssüratını bölüşən Nərmin deyir: "Həm buraxılış, həm də beynəlxalq imtahanlara hazırlaşırdım. Təbii ki, çətinlik çəkdiyim, yorulduğum anlar olurdu. Düşünürəm ki, əvvəldə dediyim kimi, dərsləri planlı şəkildə yerinə yetirmək mənə kömək etdi. Ruhdan düşdüyüm anlar, məncə, heç vaxt olmadı. Çünki mən həmişə yorulanda, çətinlik çəkəndə özümü, hansı məqsəd üçün çalışdığımı, məqsədimi xatırlayırdım. Bu da mənə öz təsirini göstərirdi. Ailəm xaricdə təhsil almaq istəyimi ilk gündən dəstəkləmişdi.

Buna görə ailəmə minnətdaram. Müəllimlərimin də bu yolda əməyi böyükdür. Onlar maraq sahələrində və bu nəticələri əldə etməyimdə köməklik ediblər. Məni hər zaman dəstəkləyiblər. Buna görə də müəllimlərimə minnətdarlığımı bildirirəm".

O, uğurun ölçüsünün başqaları ilə müqayisə deyil, insanın öz inkişaf səviyyəsinə görə qiymətləndirilməsi olduğunu bildirir:"Uğur insanın əvvəlki halına görə nə qazandığıdır. Bir insan dönüb qısa və yaxud uzun zaman fasiləsindən asılı olmayaraq, keçmişinə baxanda özündə müsbət nəticə görürsə, o deməkdir ki, bu insan uğurludur. Buna görə də deyə bilərəm ki, uğur mənim üçün inkişaf deməkdir".

**Nəzrin ABBASLI**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# İkinci Dünya müharibəsi: xalqımızın milli ruhunun təntənəsi, həmrəyliyinin qələbəsi

İkinci Dünya müharibəsində faşist Almaniyası üzərində qazanılan misilsiz qələbənin 80 illiyi qeyd olunur. Bir neçə il davam edən aramsız, amansız döyüşlərdə Azərbaycanın oğul-qızları həm ön, həm də arxa cəbhədə böyük əzmkarlıq, şücaət və qəhrəmanlıq nümunəsi göstərmişdi. Başqa sözlə, İkinci Dünya savaşı xalqımızın milli ruhunun, həmrəyliyinin təntənəsinə çevrilmişdi. Məhz cari il mayın 3-də Rusiya Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevə Qələbənin 80-ci ildönümü münasibətilə ünvanladığı təbrik məktubu da bu tarixi qələbədə Azərbaycan xalqının yeri və rolunun mühümlüyündən xəbər verdi. Məktubda deyildiyi kimi: "Əminəm ki, həmin ağır illərdə bərkiyən şanlı dostluq və qarşılıqlı kömək ənənələri gələcəkdə də Rusiya ilə Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin inkişafı üçün etibarlı zəmin olacaq. Azərbaycan torpağında yaşayan bütün veteranlara səmimi minnətdarlıq, ürəkdən gələn təbrik sözlərimi, möhkəm cansağlığı, əmin-amanlıq və uzunömürlülük arzularımı çatdırmağı xahiş edirəm".



Bəli, bəşər tarixində silinməz izlər buraxan bu müharibəyə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşçülərin təltif olunması faizinə görə Azərbaycan ən öncül sıralarda dayanırdı. Belə ki, 700 minə yaxın soydaşımız, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşub, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilib, 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb. Müharibədə azərbaycanlılardan ibarət 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçib, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olub. Müharibənin taleyində Naxçıvan da böyük rol oynayıb, 402-ci diviziya burada formalaşdırılaraq cəbhəyə yola salınıb. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstanın və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstəriblər. Qürurlu haldır ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçib, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranlardan olublar.

Müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanıb. Ümumilikdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak edib. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər ikisindən biri – 16 minə yaxın insan həlak olub. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – Sovet İttifaqı Qəhrəmanı adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülüb, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilib. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçiliblər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə alıb, gecəni gündüzə qataraq yorulmaq bilmədən çalışıb, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstəriblər. Xüsusi vurğulanmalıdır ki, faşizm üzərində tarixi qələbənin əldə edilməsində Azərbaycan nefti böyük rol oynayıb. Belə ki, həmin illərdə sovet ittifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Qələbənin təmin edilməsində həlledici amil kimi sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bir sözlə, əgər Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsindəki ixtiraları isə, o dövrdə ümumittifaq respublikaları arasında Azərbaycan elminin inkişaf göstəricisi idi.

Ölkəmizin bütün sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilib.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycanlıların 1941-1945-ci illər müharibəsində göstərdikləri şücaətləri hər zaman yüksək qiymətləndirib. Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülüb, imtiyazları və statusları bərpa olunub.

Ulu Öndərin layiqli siyasi varisi Prezident İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir və bu addım hər bir azərbaycanlı tərəfindən rəğbətlə qarşılanır. İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 aprel tarixli Sərəncamı həmin şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamı, eyni zamanda bu Qələbədə payı olan şəxslərə hörmətin ifadəsidir.

***İki faşizmi məğlub edən bir milli güc***

1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfli ömür yolu sonrakı nəsillər üçün bir məktəbdir və bugünkü gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Gənclərimizdə yüksək vətənpərvərlik ruhunu 2020-ci ilin sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində bütün dünya bir daha bariz formada gördü. Xalqımız 44 gün davam edən Vətən müharibəsində "dəmir yumruq" ətrafında birləşərək misilsiz Qələbəyə imza atdı, əzəli torpaqlarımız işğaldan azad olundu. 2023-cü il sentyabrın 19-20-də 24 saata yaxın müddətdə aparılan lokal xarakterli antiterror tədbirləri ilə müzəffər Ordumuz ərazi bütövlüyümüzü, suverenliyimizi təmin etdi. Bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada, Laçında, Xankəndidə dövlətçiliyimizin əsas atributlarından sayılan üçrəngli bayrağımız dalğalanır, ata-baba yurdlarımız dirçəldilir, soydaşlarımızın böyük qayıdış prosesi uğurla aparılır.

İkinci Qarabağ müharibəsində iştirak edən hər bir gənc ata-baba əmanəti sayılan torpaqlarımızı ermәni faşistlərinin əsarətindən azad olunmasında qəhrəmanlıq göstərdi, şəhadətə yüksəldi, qazi, qalib kimi evinə qayıtdı, misilsiz Qələbə qazandı. Başqa sözlə, xalqımızın nümayəndələrinin 1941-1945-ci illər müharibəsində göstərdiyi qəhrəmanlığı mətin, əzmli gənclərdən ibarət müzəffər Azərbaycan Ordusu 75 il sonra daha möhtəşəm şəkildə təkrar etdi. Bu həm də nəsillər arasında varislik ənənələrinin müfəssəlliyi, milli ruhun, həmrəyliyin daha böyük təntənəsi idi. Ulu babaları alman faşizmini məğlub etdiyi kimi, bugünkü qəhrəman gənclərimiz də ermәni faşizminə eyni aqibəti yaşatdı.

Söz yox ki, alman faşizminin kölәsi olan, minlərlə sovet hərbçisinin ölümünə imza atan Qaregin Njden atalarına İrəvanda abidə ucaltmaqla onun ənənələrinə, ideyalarına sadiqliyi bariz şəkildə göstərən ermənilər I və II Qarabağ müharibəsi, atəşkəs dövründə törətdikləri terror aktları, vəhşiliklərlə, hətta nasistləri də geridə qoymağı bacardılar. Prezident İlham Əliyev 2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında da hayların Qaregin Njdenə abidə ucaltmasının qəbul edilməz hal olduğunu vurğulayıb: ***"Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub".***

İkinci Qarabağ müharibəsindən ötən dövr ərzində dəfələrlə təxribatlara əl atan Ermənistana layiqli cavab verən müzəffər Ordumuz 2023-cü ilin sentyabrında reallaşdırdığı, qarşı tərəfdən bir nəfər mülki vətəndaşın belə burnunun qanamadığı antiterror tədbirləri ilə 23 saatlıq humanizm, insanlıq dərsi keçdi. Ancaq təəssüf ki, başıpozuq haylar nə insanlıq dilindən anlayır, nə də sülh çağırışlarında qətiyyət ortaya qoyur, danışıqlarda konstruktiv mövqe nümayiş etdirir. Hələ də təxribat dalğası davam edir, xalqımızın nümayəndələri ermәni terrorizmindən əziyyət çəkirlər, çaylarımız çirklənir, ekologiyamız vəhşiliyin qurbanına çevrilir.

80 illik yubileyin təntənəsində böyük qürur hissi ilə qeyd edirik ki, 1941-1945-ci illərdə olduğu kimi, İkinci Qarabağ müharibəsində də azərbaycanlı gənclər böyük şücaət göstərdilər, torpaqlarımız uğrunda canlarından keçdilər. Təbii ki, bu, İkinci Dünya müharibəsi qəhrəmanlarının adını daim uca tutan, hər kəs üçün örnək sayan Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına, yoluna Prezident İlham Əliyev tərəfindən göstərilən sonsuz sədaqətin, illərlə aparılan mütərəqqi dövlət-gənclər siyasətinin, məqsədyönlü tədbirlər sayəsində gənclərdə formalaşmış Vətənə sevgi, torpağa, milli ruha bağlılığın məntiqi nəticəsi idi. Xalqımızın milli ruhunun təntənəsi, misilsiz şücaət və qəhrəmanlıq rəmzi sayılan, həmrəyliyin qələbəsi – İkinci Dünya müharibəsində igidlik göstərən, şərəf, ləyaqət dastanı yazan Vətən övladları heç zaman unudulmayacaq, onların keçdikləri döyüş yolu bundan sonrakı gənc nəsillər üçün də örnək, nümunə sayılacaq.

**"Şərq qapısı"**

# Cəbhəyə güc verən əllər – 100 yaşlı Dilbər nənə

Müharibənin yalnız səngərdə deyil, eyni zamanda arxa cəbhədə də aparıldığı hər kəsə məlumdur. Hər zaman cəbhədə döyüşən əsgərin arxasında dayanan, yorulmadan çalışan, duaları və zəhməti ilə dayaq olan insanlar var. Bugünkü həmsöhbətim də onlardan biridir. Şərur rayonunun İbadulla kənd sakini, arxa cəbhə veteranı 100 yaşlı Dilbər nənə bir əsrə bərabər ömründə 3 dəfə müharibənin çətinlikləri ilə üz-üzə gəlib – İkinci Dünya, I və II Qarabağ müharibələri.

Dilbər nənə həmin illəri gözüdolu xatırlayır: "Müharibənin gətirdiyi dəhşətlər, aclıq və səfalət gözlərimin qarşısındadır. İkinci Dünya müharibəsi başlayanda kəndin bütün başıpapaqlıları cəbhəyə aparılmışdı. Bütün işlər qocaların, uşaqların və qadınların üzərinə düşmüşdü. Bizim evdən həm yoldaşım, həm də qardaşım müharibəyə getmişdi. Hamımız yaxşı dərk edirdik ki, düşmənin ən böyük məqsədi Bakının işğal olunmasıdır. Xatırlayıram ki, cəbhəyə gedənlərin əliyalın qalmaması üçün bütün kənd sakinləri ilə birgə səfərbər olmuşduq. Onlar üçün isti paltar, corab, köynək toxuyub cəbhəyə yollayardıq. Kolxoz və sovxozlarda qadınlar hər işi özləri görürdü. Xəstəxanalar da gecə-gündüz dəmədən çalışırdı. Tapdığımız bir tikə çörəyi cəbhəyə göndərir, özümüz və uşaqlarımız meyvə qurusu ilə dolanırdıq çox vaxt. Bağ-bağçanın tutunu, əriyini qurudur, qışa saxlayırdıq. Müharibə şəraiti çətin olsa da, biz qorxmadıq, birlik olduq. Çünki hər birimiz Vətənə borclu olduğumuzu düşünürdük. Müharibənin qara kağızlarından biri bizim ocağa da gələndə öyrəndik ki, qardaşım Qurbanəli Berlin döyüşlərində itkin düşüb. Həyat yoldaşım İsmayıl isə müharibə bitəndən bir il sonra sağlamlığını itirmiş vəziyyətdə evimizə qayıtdı".



Dilbər nənə deyir ki, onun 9 övladı, 30 nəvəsi, 50 nəticəsi və 21 kötücəsi var: "Bu günə şükür. Onların içində ali təhsili olanı da var, kənd təsərrüfatı ilə məşğul olanı da. Vətənlərinə layiqincə xidmət edirlər". Nənənin gözləri dolaraq beş il öncə Vətən müharibəsində şəhidlik zirvəsi fəth edən nəvəsi Zülal Mədətlini xatırlayır. Deyir ki, dəlidolu oğul idi. Harada haqsızlıq görsə, özünü ora atardı. Ölümdən qorxmazdı. Elə Qarabağa da öz istəyi ilə getdi. 22 gün döyüşdü. Şəhid olub evimizə qayıtdı.

Nənə deyir ki, dövlətimiz bu gün də bizi unutmur, xidmətlərimizi dəyərləndirir. Uca Tanrı Vətənimizi qorusun, torpağımız daim azad, bayrağımız uca olsun!

Yüzyaşlı, gözünün nurunu itirmiş nənə ilə söhbətimdə onun razılığını eşidəndə düşünürəm ki, ötən günlərdə Prezident İlham Əliyevin imzaladığı Sərəncam əsasında müharibə veteranlarına verilən birdəfəlik müavinət Vətən uğrunda canını, sağlamlığını, illərini əsirgəməyən müharibə veteranlarına göstərilən diqqət, əslində, xalqın öz qəhrəmanlarına olan minnətdarlığının ifadəsidir. Qeyd edək ki, Prezident İlham Əliyevin İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərlə bağlı imzaladığı bu Sərəncamı, ümumilikdə, 2469 şəxsə şamil olunacaq.

**Bülbül QULİYEVA**

Ötən əsrin sonlarından etibarən dünya ekoloji təhlükənin fərqindədir, insanlar və dövlətlər böyük fəlakətin qarşısını almağın yollarını axtarır, cəhdlər edir. Ekoloji balansı pozan amillər çoxdur, kənd təsərrüfatında istifadə edilən kimyəvi maddələr, avtomobillərin sürətlə artması, nəzarətsiz urbanizasiya, meşələrin məhv edilməsi kimi vəziyyət də bu amillərdəndir. Daha aydın desək, özülündə insan fəaliyyəti dayanan bir sıra problemlər ümumi evimizi – dünyanı təhlükəyə doğru aparır.

Azərbaycan bu istiqamətdə öz məsuliyyətini bilən ölkələrdəndir. Dövlətimizin yaşıl dünya naminə atdığı bir çox addım dünyanın, dolayısı ilə öz ölkəmizin rifahı naminə qiymətli davranışdır. Beynəlxalq İqlim Konfransına ev sahibi olması, "yaşıl enerji"də qət etdiyi yol, təbiətin mühafizəsi üçün həyata keçirdiyi layihələr Azərbaycanı dünyada ekologiyanın dostu kimi tanıdıb. Ölkəmizin "yaşıl enerji" siyasətində əhəmiyyətli payı olan Naxçıvan Muxtar Respublikası da yaşıl dünyaya etibarlı tərəfdaşdır.

# "Yaşıl Azərbaycan"ın Naxçıvan modeli



### *"Yaşıl enerji"də Naxçıvan təcrübəsi*

Naxçıvanın enerji təminatı siyasəti bərpa olunan enerji mənbələrinin inkişafı istiqamətində yürüdülür. Təkcə 2025-ci ilin mart ayında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində istehsal olunan elektrik enerjisinin 52,8 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşüb. Bu, bir ay üçün olduqca əhəmiyyətli nailiyyətdir. Bu rəqəmin təzahürü o deməkdir ki, Naxçıvan yaşıl dünyanın qurulması istiqamətində həyata keçirdiyi ekoloji proqramların bəhrəsini görür.

Ümumiyyətlə, ötən ilin müvafiq dövrü ilə müqayisə edəndə görərik ki, ümumi elektrik enerjisi istehsalında su, külək, günəş elektrik stansiyalarının payı artıb. Alternativ və bərpa olunan enerji mənbələrində 15 milyon 596 min 247 kVt/saat elektrik enerjisi istehsal edilirsə, bu o deməkdir ki, Naxçıvan bərpa olunan enerji siyasətini uğurlu qurub, muxtar respublika ekoloji təmiz, yaşıl dünya naminə həyata keçirilən layihələrin effektiv nəticələrini görür.

Ölkə başçısı İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da "yaşıl enerji zonası" elan etməsi muxtar respublikanın "yaşıl enerji" sahəsindəki məsuliyyətini həm artırdı, həm də təşviq etdi deyə bilərik. Naxçıvan 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündəki payının 30 faizə çatdırılmasını (hazırda 17 faiz təşkil edir) hədəf müəyyənləşdirib. Bu hədəfə çatmaq üçün muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti də əhəmiyyətli rol oynayacaq. Naxçıvan ekoloji cəhətdən təmiz enerji istehsalı potensialına malik bölgədir.

Xüsusilə günəş enerjisindən istifadə imkanları Naxçıvan üçün əhəmiyyətli dərəcədə çoxdur. Çünki Naxçıvan ərazisində günəşli saatların ortaillik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu, muxtar respublikada ilin bütün fəsillərində günəş enerjisindən istifadə imkanı deməkdir. Buna görə də Naxçıvanda günəşdən enerji istehsal etmək istiqamətində əhəmiyyətli dərəcədə böyük işlər görülür. O cümlədən yeni günəş elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerji miqdarında bərpa olunan enerjinin payını xeyli artırıb.

Yeri gəlmişkən, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan 11 prioritet istiqamət var ki, onlardan biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır. Qarşıya qoyulan əsas hədəf "yaşıl enerji"nin istehsalında artma nail olmaqdır. Xatırlatmaq yerinə düşər ki, elə Dövlət Proqramının qəbul olunduğu il – 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında istehsal edilən 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisindən 19,89 faizi su elektrik və 12,75 faizi günəş elektrik stansiyalarının payına düşüb. Bu, muxtar respublika üçün böyük uğurdur.

### *Beynəlxalq şirkətlərin gözü Naxçıvandadır*

Naxçıvanın bərpa olunan enerji mənbələri sahəsindəki potensialı, təbii olaraq, diqqət çəkir. Bu marağın nəticəsində 2023-cü ildə Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu və "Naxçıvan – "yaşıl enerji zonası" beynəlxalq konfransında, eləcə də Bakı Enerji Forumunda Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalandı. Həmin razılaşmaya görə, Naxçıvanda "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan günəş elektrik stansiyasının tikilməsi də nəzərdə tutulub. Birləşmiş Ərəb Əmirliklərinin bərpa olunan enerji sahəsində ən iri şirkəti olan "Masdar" hazırda Naxçıvandakı tədqiqatlarını davam etdirir.

Çexiyanın "Czech Engineering" şirkətinin diqqəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədinə fokuslanıb. Şirkət bu ərazidə günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi istiqamətində böyük işlərə imza atacaq. Bundan əlavə, Almaniyanın "Notus" şirkəti də öz diqqətini Naxçıvana kökləyib. Şirkət "yaşıl enerji" layihələrini reallaşdırmaq üçün Naxçıvanın iqlimini olduqca əlverişli hesab edir. Planlaşdırılan pilot layihə çərçivəsində 70 meqavatlıq günəş elektrik stansiyası inşa ediləcək. Stansiyanın inşası Naxçıvanın şimal-qərbində – Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə planlaşdırılır.

### *Bilik təməldir, təməl isə yaşıl və orqanik dünya*

Naxçıvanın ekoloji siyasətinin uğurlu olmasının bir səbəbi də bu təbliğatın məktəblərdən başlanmasıdır. Enerji məlumatlılığının artırılması, yaşıl dünya naminə görüləcək işlər, təbiətin mühafizəsi istiqamətində təhsil ocaqlarında layihələr icra edilir, uşaqların ekoloji savadlılığı artırılır. Ekoloji savadlı nəsil formalaşdırmaq bu dünyaya, dolayısı ilə öz ölkəmizə ediləcək ən yaxşı hədiyyədir. Məktəblilərin, tələbələrin könüllü fəaliyyətləri sayəsində tez-tez ekoloji aksiyalar, layihələr həyata keçirilir. Ağacların əhəmiyyəti, suvarılmaya diqqət, tullantıların çeşidlənməsi, ekoloji çantalara keçid kimi mövzularda təşkil edilən layihələr ətraf mühitin mühafizəsi üçün atılan ən mühüm addımlardandır.

Muxtar respublika "yaşıl iqtisadi zona" elan edildikdən sonra həyata keçirilən başqa bir addım da "Oqranik Naxçıvan" konsepsiyasının yaradılması oldu. Bu, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində yaradılan, muxtar respublikada orqanik kənd təsərrüfatının inkişaf etdirilməsi və orqanik məhsulların istehsalının tənzimlənməsi istiqamətində fəaliyyət göstərən publik hüquqi şəxsdir. "Orqanik Naxçıvan" aqroparkının inkişaf konsepsiyasının və mobil tətbiqlərinin hazırlanması da onun fəaliyyətinin bir hissəsidir. Naxçıvanın ənənəvi maldarlıq, əkinçilik metodlarını müasir çağa uyğunlaşdırmaq, yaşıl dünyaya zərər vermədən emal sənayesinin yaradılması, kimyəvilərdən istifadə etmədən orqanik məhsullar əldə edilməsi diqqətdə saxlanan əsas amillərdir.

### *Biomüxtəliflikdə Naxçıvan izi*

Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyi tarixən maraq cəlb edib. Biomüxtəliflik bir ekosistemdə və ya Yer kürəsində rast gəlinən müxtəlif həyat formalarıdır. İnsanların yaşaya bilmələri üçün yaşadıqları mühitin təmiz su və havası, münbit torpaqları, qida maddələri və digər ehtiyaclarını ödəmək üçün istifadə edə biləcəkləri müxtəlif materiallar olmalıdır. Həyat üçün zəruri olan maddələr və şərait, ətraf mühitin və bakteriyaların, göbələklərin, bitkilərin və heyvanların sayəsində təmin edilir. Bütün bu canlılara biomüxtəliflik deyilir.

Naxçıvan Azərbaycanın biomüxtəliflik cəhətdən ən zəngin bölgələrindəndir. Biomüxtəlifliyi qorumaq məqsədilə muxtar respublika ərazisində milli park yaradılıb. Maraqlı burasıdır ki, mühafizə olunan ərazilər Naxçıvanın ümumi ərazisinin, təxminən, üçdəbiri qədərdir. Təkcə bu fakt Naxçıvanda ekosistemin nə qədər əhəmiyyətli olmasını, onun qorunması üçün bütün tədbirlərin görülməsini təsdiqləyir. Mühafizə olunan ərazilərdə quraşdırılmış kameralar vasitəsilə nəsli kəsilməkdə olan canlıların həyat keyfiyyəti, artımı daim izlənir. Xüsusilə bəbirlərin mühafizəsi, təhlükəsiz şəraitdə böyümələri və nəsil artırmaları üçün bu ərazilər əhəmiyyətlidir.

Türkiyə Respublikasından gətirilən 150 min balıq körpəsinin Heydər Əliyev və Uzunoba su anbarlarına buraxılması, 431,6 ha sahədə meşəsalma və meşəbərpa, toxumla əkin tədbirlərinin görülməsi, 170 min müxtəlif meşə və meyvə tinginin əkilməsi, Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ümumtəhsil məktəblərinin ərazilərində keçirilmiş ağacəkmə aksiyalarında 4300 meyvə və dekorativ ağacın əkilməsi, Naxçıvan-Şahbuz avtomobil yolunun kənarında 1,1 ha sahədə salınmış media bağında 1000 ağacın əkilməsi, "Biomüxtəliflik günü" aksiyası çərçivəsində 100 min ağac əkilməsi, sizcə də, Naxçıvanın "yaşıl zona" ünvanı olmasının göstəricisi deyilmi?

**Lalə MEHRALI**

*Yazı "Şərq qapısı" qəzetinin elan etdiyi "Müstəqil Azərbaycan: "Konstitusiya və Suverenlik İli"nin təntənəsi" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim edilir.*



## DÜNYA xəbərləri

### Moskvada Qələbə paradında 29 xarici liderin iştirak edəcəyi gözlənilir

İkinci Dünya müharibəsində Qələbənin 80 illiyinə həsr olunmuş Moskvadakı paradda 29 xarici ölkə başçısının iştirakı gözlənilir.

Bu barədə jurnalistlərə Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov məlumat verib. Mayın 9-da keçiriləcək paradda 13 ölkənin hərbçiləri iştirak edəcək. Bundan əlavə, 31 ölkənin müdafiə nazirliklərindən nümayəndə heyətlərinin gəlməsi gözlənilir.

Rusiya Prezidenti Vladimir Putin və xarici liderlər mayın 9-da Aleksandr bağında Naməlum Əsgər məzarı önünə əklil qoyacaqlar. Tədbirlərdə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq qurumların baş katiblərinin də iştirakı nəzərdə tutulur.

Uşakov əlavə edib ki, Çin Xalq Respublikasının sədri Si Cinpinin Moskvaya səfəri çərçivəsində tərəflər iki birgə bəyanat qəbul edəcək və mətbuat üçün çıxış edəcəklər.

### Həcc ziyarəti zamanı viza qaydalarını pozanlar 26 min dollar məbləğində cərimələnəcək

Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi Həcc ziyarətində viza qaydalarını pozanlar üçün 26 min dollara qədər böyük məbləğdə cərimələr və Krallığa mümkün giriş qadağası tətbiq olunacağını elan edib.

Nazirlik cəzadan yayınmaq üçün qarşıdan gələn mövsümdə Həcc ziyarətinə rəsmi icazənin alınmasının vacibliyini vurğulayıb.

Səudiyyə Ərəbistanının nazirliyi bildirib ki, rəsmi icazəsiz və ya turist vizası ilə Həcc ziyarətinə gedən şəxslər 5332 dollar cərimələnəcək.

Nazirlikdən verilən məlumata görə, icazəsiz Həcc ziyarətinə gedən və ya bunu etməyə cəhd edən şəxs üçün turist vizası üzrə müraciət edən hər kəs 26 min dollara qədər cərimələnəcək. Bu, Həcc dövründə səyahət vizası olanları Məkkəyə və ya müqəddəs yerlərə daşıyan hüquqi və fiziki şəxslərə də aiddir.

Bu il Həcc ziyarətinin iyunun 6-da, cümə günü axşam başlanacağı və iyunun 11-də başa çatacağı gözlənilir.

### Süni intellektin ciddi xətaları aşkar edilib

Müxtəlif suallara cavab axtararkən süni intellektin xidmətindən istifadə geniş hal alıb. Onların verdiyi cavablara ifrat arxayınlıq isə narahatlıq doğurur.

"Columbia Journalism Review" təşkilatı 8 növ süni intellekti araşdırıb. Məlum olub ki, onların hazırladığı cavabların orta hesabla 60 faizdən çoxu səhvdir.

Tədqiqat üçün süni intellektə 200 məqalədən konkret sitatları seçmək, müəllifi, dərc olunma tarixini və linki tapmaq tapşırığı verilib. İşi asanlaşdırmaq üçün "Google" axtarış sistemində ilk sırada yer alan elmi məqalələr seçilib. Süni intellekt proqramları və çatbotların heç biri verilən tapşırığı tam icra edə bilməyib. Ən ciddi xəta isə sitatların tapılmasında olub.

Tədqiqatçılar qeyd edirlər ki, süni intellekt çox vaxt konkret cavabı tapmaq yerinə, cavab "icad edir" və ya informasiyanın "halüsinasiyası ilə məşğul olur". Ekspertlər bunu təsadüfi xəta deyil, sistemli davranış kimi qiymətləndirirlər.

Qeyd olunur ki, süni intellektin yarada biləcəyi dezinformasiya narahatlıq doğurur. Onların xidmətindən istifadə edənlər təqdim edilmiş məlumatları təkrarən təbii intellekt süzgəcindən keçirməlidirlər. Ənənəvi axtarış sistemlərinin müəyyən qüsurları olsa da, onlar məlumatların sintezini insanın öhdəsinə buraxır. Burada ən dəyərli olan son qərarı istifadəçinin verməsidir.

# XXI əsrin böyük çağırışı – suya qənaət: *mütərəqqi suvarma*

Ölkəmizdə təbii su ehtiyatlarının 70 faizə qədər böyük bir hissəsi əkinçilikdə suvarma üçün istifadə olunur. Elə bu səbəbdən də əkin sahələrində istifadə olunan suvarma sistemləri və onların səmərəliliyi barədə məlumat almaq üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət etdik. Müvafiq sahə üzrə mütəxəssis Fəxrəddin Əliyev suallarımızı cavablandırdı.

Hazırda muxtar respublikamızda 2024-cü ilin payızında 2025-ci ilin məhsulu üçün əkilmiş taxıl sahələrində, eləcə də 2025-ci ilin yazında həyata keçirilmiş əkinlərdə vegetasiya suvarmalarına başlanıldığını bildirən müsahibimiz qeyd etdi ki, bütün dünyada olduğu kimi, muxtar respublikamızda da suvarma sularından qənaətlə və itkisiz istifadə məqsədilə suvarmanın mütərəqqi üsullarından istifadə olunur. Suvarmada ən çox istifadə olunan üsullar çiləmə, damcı, şırımlarla suvarma və qapalı suvarma sistemləridir ki, bu üsullar içərisində çiləmə və damcı metodları daha müasir suvarma üsullarıdır.

"Son illərdə də muxtar respublikada müasir, səmərəli və qənaətcil qapalı suvarma sistemləri geniş tətbiq olunmağa başlanıb ki, bu üsul açıq kanallardan fərqli olaraq suyun açıq havada buxarlanmasının və torpağa sızmasının qarşısını alaraq su itkilərini minimuma endirir. Bu üsulla suya 30-60 faizə qədər qənaət olunur. Eyni zamanda qapalı suvarma sistemləri vasitəsilə suvarma imkanları olmayan kənd təsərrüfatı təyinatlı torpaqlara suvarma sularının çıxarılması mümkün olur. Bununla yanaşı, damcı suvarma metodu da olduqca məqsədyönlü və səmərəli suvarma təmin etməklə buxarlanma və ya axıntıya qədərki su itkilərini azaldır ki, bu da, öz növbəsində, suya qənaət olunmasına xidmət edir. Su xüsusi borularla axdığından buxarlanma və sızma kimi su itkiləri olmur, nəticədə, suyun dörddəbirinə qənaət edildiyindən axım ilə suvarma üsuluna nisbətən daha səmərəli olur", – deyən mütəxəssis onu da diqqətimizə çatdırdı ki, damcı ilə suvarma ekoloji, vəsait qoyuluşu, keyfiyyətli suvarma və suya qənaət baxımından xüsusilə effektlidir və bu üsulla həm suya, həm də işçi qüvvəsinə qənaət olunur.



Fəxrəddin Əliyev muxtar respublikada bu sahədə görülən işlərlə bağlı sualımızı ətraflı cavablandıraraq bildirdi: "Naxçıvan Muxtar Respublikasında son illərdə suvarma şəbəkələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülüb. Mütərəqqi suvarma sistemlərinin qurulması daim diqqət mərkəzində saxlanılır. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir və drenaj xətləri çəkilir. Muxtar respublikada müasir irriqasiya sistemləri qurularaq istifadəyə verilir və torpaqların su təminatı yaxşılaşdırılır. Bütün bunlar, ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir".

Qlobal su böhranını, Naxçıvanın quraq iqlimini və torpaq münbitliyini nəzərə alaraq daha az su tələb edən və yaxud da quraqlığadözümlü taxıl sortları üzrə hansı tədqiqatların aparıldığını soruşduqda müsahibimiz qeyd etdi: "Qlobal iqlim dəyişikliyi dövründə sudan qənaətlə istifadə olunması, əlbəttə ki, əsas məsələlərdən biridir. Sözsüz ki, digər tədbirlərlə yanaşı, daha az su tələb edən və ya quraqlığadavamlı taxıl sortlarının əkilib-becərilməsi də suya qənaət baxımından əhəmiyyətlidir. Elə bu istiqamətdə görülən işlərin nəticəsidir ki, son dövrlərdə muxtar respublikamızda əkilən taxıl sortları quraqlığadavamlı olması ilə yanaşı, yerli iqlim şəraitinə uyğunlaşaraq daha az su ilə yüksək məhsul verir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına Elmi-Tədqiqat İnstitutunun müvafiq şöbələrində muxtar respublikaya gətirilmə "Nehir", "Xəmsə", "Suqovuşan", "Yubiley", "Xanqızı", "Lider", "Rəvan", "Göytəpə" buğda, "Sadiq", "Nuranə" arpa sortlarının yüksək məhsuldarlıq, eyni zamanda quraqlığadavamlılıq xüsusiyyətləri üzərində də elmi-tədqiqat işləri aparılır.

✍ **Cavanşir BAĞIRLI**

# İstedadlı gimnast öz uğurları ilə sevindirir

Gimnastika uşaqların fiziki və mənəvi inkişafında mühüm rol oynayır. Onlar öz zəhmətləri, əzmkarlıqları və istedadları ilə seçilirlər. Bu idman növü incəlik, çeviklik tələb edir. Bəzən yaşlarından böyük məsuliyyət daşıyırlar, amma bu sahəyə sevgi və hədəf onları daha böyük uğurlara aparır.




"Şərq qapısı"nın budəfəki qonağı Naxçıvanın istedadlı gimnastı Duyğu Rüstəmli oldu. O, artıq 6 ildir, gimnastika ilə məşğul olur və bu idman növündə bir sıra uğurlara imza atıb. Öyrənirik ki, balaca yaşlarından valideynləri onun qeyri-adi hərəkətlərini müşahidə etdikcə xüsusi istedada malik olduğunu düşünərək Duyğunu gimnastikaya yönləndiriblər. Məşqlərə hər gün böyük həyəcan və sevgi ilə qatıldığını deyən istedadlı gimnastımız bildirdi ki, bu idman növünə başlayarkən hər şey çox çətin görünsə də, öhdəsindən gələrək bütün hərəkətləri öyrənməyə çalışıb: "Yarışlarda iştirak edən zaman bir az həyəcan yaşasam da, qarşıma qoyduğum məqsədə çatmaq üçün çalışdım. Bu yolda mənə ən böyük dəstək olan anamdır. Bütün uğurlarıma sevinərək daim məni ruhlandırır. Hədəfim yalnız medal qazanmaq deyil, həm də gələcəkdə peşəkar gimnast olmaqdır. Bu yolda mənə dəstək olan məşqçi-müəllimimə də təşəkkür edirəm".

Qeyd edək ki, Duyğu Rüstəmli "Gimnastika hamı üçün" devizi altında keçirilən turnirdə qalib adını qazanıb. O həm də bədii gimnastika üzrə muxtar respublikada təşkil olunan yarışlarda müxtəlif diplom və təltiflərə də layiq görülüb.

İnanırıq ki, Duyğu gələcəkdə daha böyük uğurlar qazanacaq.

# Naxçıvan məktəblisi qızıl medal qazanıb




Dünyanın müxtəlif ölkələrindən minlərlə şagirdin qatıldığı nüfuzlu "Sasmo" Olimpiadasında Naxçıvanı təmsil edən 10 məktəbli qızıl medal qazanaraq uğura imza atıb. Onlardan biri də 8 nömrəli tam orta məktəbin 3-cü sinif şagirdi Xədicə Məmmədlidir. Gərgin rəqabət şəraitində keçən həmin bilik yarışmasında o, yüksək nəticə göstərərək qızıl medala layiq görülüb. Qeyd edək ki, Xədicə 8 ay ərzində 3 beynəlxalq olimpiadada qalib olub. Ümumi sınaqlarda isə 3 dəfə 700 bal toplayaraq 10 qızıl, 4 gümüş, 4 bürünc, 4 kubok qazanaraq 30 ədəd sertifikat əldə edib.

Onun bu uğuru Azərbaycan təhsilinin beynəlxalq səviyyədə inkişaf etdiyini bir daha nümayiş etdirir. Biz də Xədicəni təbrik edir, gələcək fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

## Elan

"Babək Sirab" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə çatdırılır ki,12.05.2025-ci il tarixdə saat 14$^{00}$-da "Babək Sirab" Açıq Səhmdar Cəmiyyətinin Babək rayon Sirab kəndində yerləşən inzibati binasında səhmdarların yığıncağı keçiriləcəkdir. Gündəlikdə duran məsələlər:

*1. Cəmiyyətin 2024-cü ilədək fəaliyyəti*

*2. Maliyyə hesabatlarının təsdiqlənməsi və dividendlərin elan edilməsi*

*3. Digər məsələlər*

*4. 2024-cü il üçün maliyyə hesabatlarının təsdiqlənməsi və dividendlərin elan edilməsi.*

## Naxçıvan şəhəri Naxçıvan bələdiyyəsi hüquqi xidmətlərin satın alınması məqsədilə ixtisaslaşmış hüquq xidməti göstərən şirkətlər arasında açıq seçim elan edir

Hüquqi xidmətlərə aşağıdakılar daxildir:

*- Surətli hüquq-məsləhət xidmətinin verilməsi (yazılı və şifahi);*

*- müqavilələrin və digər rəsmi sənədlərin hüquqa uyğun formada hazırlanması və ekspertizası;*

*- məhkəmə və digər dövlət orqanlarında bələdiyyə təmsilçisinin hüquqşünasla təmin edilməklə hüquq xidmətinin göstərilməsi;*

*- bələdiyyənin hüquqi risklərinin qiymətləndirilməsi və idarə olunması;*

*- korporativ idarəetmə prinsiplərinə uyğun sənəd dövriyyəsinin təşkili;*

**Tələb olunan sənədlər:**

*- Təsis sənədlərinin (nizamnamənin, vergi çıxarışının) təsdiq olunmuş surəti;*

*- müvafiq sahə üzrə icra olunmuş xidmətlərinin (son üç il ərzində) təhvil-təslim aktlarının təsdiq olunmuş surəti;*

*- işçilər barədə xidməti arayış və onların ixtisas və peşəsini təsdiqləyən sənədlərin (işçi olan vəkillər üçün xidməti vəsiqənin) təsdiq olunmuş surəti.*

Maraqlanan hüquq xidməti göstərən şirkətlər elan dərc olunmuş gündən etibarən 10 (on) iş günü ərzində sənədlərini Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinin inzibati binasına təqdim etməlidirlər.

## *Bildiriş*

"Naxçıvan mətbəxi" Kulinariya Mərkəzinin nəzdində yaradılmış "Milli Yeməklər" İctimai İaşə Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyət əhəmiyyətini itirdiyindən ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsi ləğv edilmişdir.

## *İtmişdir*

Şərur rayonu, Siyaqut kəndində yaşamış Fərəcova Humay Süleyman qızının adına olan JN-158$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Saltaq kəndində yaşamış Ağayeva Xəzəl Həsən qızına məxsus JN-333$^{A}$ və JN-333$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 11-ci məhəllə, döngə 6, ev 3-də yaşamış Əliyev Eliyar Yaqub oğlunun adına olan JN-876$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi tərəfindən Babalı Nazim Sədi oğlunun adına olan 3 oktyabr 2014-cü ildə daxil olduğu nəzarətçi çilingər peşəsini 9 dekabr 2014-cü ildə bitirməsi haqqında verilən 001610 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kəndində yaşamış Hüseynov Nemət Cavad oğlunun adına olan JN-261$^{A}$ nömrəli, 10200028 kodlu, JN-261$^{B}$ nömrəli, 10200028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Nəsirov İsmayıl Fərman oğluna məxsus 102013026089 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kənd sakini Əliyev Fətulla Həmzə oğluna məxsus JN-112 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Seyidov Siyafər Seyidrza oğluna məxsus JN-481$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tumaslı kənd sakini Tağıyev Vaqif Əmiraslan oğlunun adına verilmiş JN-250$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Mehdiyev Vəkil Abbasqulu oğlunun adına olan 103013006768 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Pəzməri kənd sakini Bədəlov Oktay Bədəl oğlunun adına olan JN-20$^{A}$ və JN-20$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Sabirkənd sakini Fərəcov Səyyad Xəlil oğlunun adına olan A-023440 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Sadiqov Tural Səfər oğlunun adına 2008-ci ildə Ukrayna Mülki Müdafiə Universiteti tərəfindən verilmiş 004028 nömrəli diplomun qiymət cədvəli itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yerləşən, Yusifov Vahid Nəriman oğlunun adına olan fərdi yaşayış evinin 1801 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Biçənək kəndində Dadaşov Akif Səfər oğlunun adına verilmiş JN-050$^{A}$, JN-050$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər və JN-049 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tənənəm kənd sakini Abbasov Həsrət Həmdulla oğluna məxsus JN-132$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 1000. Sifariş № 130

*Nömrəyə məsul:* Ramiyə Əkbərova, Rafiq Təhməzov, Türkanə Əsədova
*Dizayner:* Lətif Zeynalov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.